# 525-ci qəzet

25 sentyabr 2012-ci il, çərşənbə axşamı, №173 (3729). Qiymәti 20 qәpik

www.525.az

## “Qarabağ problemi həll olunsa, özümü dünyanın ən xoşbəxt insanı sayaram”

***ABŞ-IN AZƏRBAYCANDAKI SƏFİRİ RİÇARD MORNİNQSTAR:***

### “AZƏRBAYCAN VƏ ERMƏNİSTAN SÜLH SAZİŞİNİN RAZILAŞMASININ ƏLDƏ OLUNMASI İSTİQAMƏTİNDƏ MÜHÜM ADDIMLAR ATMALIDIR”



“Mənim Azərbaycanda diplomatik fəaliyyətim dövründə Dağlıq Qarabağ problemi öz həllini taparsa, onda özümü dünyanın ən xoşbəxt insanı hesab edərəm”. APA-nın Cənub bürosunun məlumatına görə, bunu sentyabrın 22-də Lənkəranda səfərdə olan ABŞ-ın ölkəmizdəki səfiri Riçard Morninqstar jurnalistlərlə söhbətində deyib. Səfir kimi Bakıdan kənarda ilk səfərinin məhz Lənkəran şəhərinə təsadüf etməsindən məmnunluq hissi keçirdiyini bildirən amerikalı diplomat həyat yoldaşı xanım Feyslə bu diyarda gördüklərindən zəngin təəssürata malik olduğunu bəyan edib. Lənkəran şəhər stadionunda 17 yaşlı qızlar arasında dünya çempionatı çərçivəsində ABŞ-Fransa komandaları arasında keçirilən görüşü canlı izləməkdən böyük zövq aldığını dilə gətirən R.Morninqstar oyunun heç-heçə başa çatmasından nə özünün, nə də fransalı dostu Paskal Monyenin məyus olmadığını vurğulayıb.

Ermənistan-Azərbaycan probleminə toxunan ABŞ səfiri yekunda hər hasısa bir tərəfin müharibə istədiyinə inanmadığını bildirib: “Belə hesab edirəm ki, Azərbaycan və Ermənistan sülh prosesinin bərpa olunması və yekun sülh sazişinin razılaşmasının əldə olunması istiqamətində mühüm addımlar atmalıdır. Hesab edirəm ki, vəziyyəti daha da gərginləşdirən və sülh prosesini çətinləşdirən hər hansı bir addım atılmamalıdır. Bir daha qeyd etmək istəyirəm ki, mən həm Minsk qrupunun həmsədrləri, həm də Azərbaycan hökumətinin rəsmiləri ilə danışıqlar yolu ilə bu prosesi irəliyə doğru aparmaq üçün əlimdən gələni edəcəyəm”.

Azərbaycanın öz iqtisadi inkişafını daha da artırmaqla davam etdirmək və bölgədə iqtisadi cəhətdən inkişaf etmiş ölkəyə çevrilmək üçün çox yaxşı imkanlara malik oduğunu bildirən xarici diplomatın fikrincə, 20 ildən bəri davam edən Dağlıq Qarabağ problemi öz həllini taparsa, Azərbaycan iqtisadi və digər sahələrdə lider ölkələrdən birinə çevrilə bilər və öz qonşularına, o cümlədən Ermənistana da inkişaf, tərəqqi üçün köməklik göstərə bilər: “Biz Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması məsələsinə sadiqik və bunun baş verməsi üçün əlimizdən gələni edirik. ABŞ-da müxtəlif qrupların maraqları da müxtəlifdir. Ancaq mən əminliklə deyə bilərəm ki, ABŞ hökumətinin bir məqsədi və bir məramı var. Bu da Dağlıq Qarabağ münaqişəsinin həll olunmasıdır. Mən dövlət katibi Hillari Klintonla da şəxsi söhbətlərimdən deyə bilərəm ki, o da bu məsələnin həllini çox yüksək bir prioritet hesab edir”.

## Binə Ticarət Mərkəzini su basdı

### SAHİBKARLARA KÜLLİ MİQDARDA ZİYAN DƏYDİ



Bakının Lökbatan qəsəbəsində yerləşən Binə Ticarət Mərkəzini su basıb. APA-nın hadisə yerində olan əməkdaşının verdiyi məlumata görə, ticarət mərkəzində yerləşən yüzlərlə obyektə su dolub. Nəticədə dükanı su basmış sahibkarların hər birinə orta hesabla 20-40 min manat məbləğində ziyan dəyib. Təxmini hesablamalara görə, milyonlarla manatlıq mal yararsız vəziyyətə düşüb.

Burada fəaliyyət göstərən sahibkar Nəzakət Yaqubova APA-nın müxbiri ilə söhbətində ona 20 min manatdan artıq ziyan dəydiyini bildirib: “Mən evimi girov qoyub bankdan 50 min dollar kredit götürmüşəm. Bu hadisə nəticəsində bədbəxt oldum. Ticarət mərkəzinin nümayəndələrinə müraciət etmişəm, amma bir söz demirlər”. Rövşən Məmmədov adlı sahibkar isə ona dəyən ziyanı hələ hesablamadığını bildirib: “Mən bahalı mallar satıram. Ən ucuzunun qiyməti 100 dollardır. Malları asmışdım, hamısı islanıb...”

Məlum olub ki, ticarət mərkəzini sentyabrın 23-dən 24-dən keçən gecə yağan yağışdan sonra su basıb. Belə ki, kanalizasiya xətti işləməyib, həmçinin dükanların bir qisminə su damıb.

*Ardı 3-cü səh.*

## Afaq Bəşirqızı xəstəxanaya yerləşdirilib



Azərbaycan Dövlət Musiqili Komediya Teatrının aktrisası, Xalq artisti Afaq Bəşirqızının səhhətində problem yaranıb. Aktrisanın həyat yoldaşı Əhməd Təhməzovun APA-ya verdiyi məlumata görə, aktrisa sentyabrın 23-də “Yeddi məhbusə anası” tamaşasında oynadıqdan sonra halı pisləşib: “Tamaşanın birinci hissəsi uğurlu olub, özünü yaxşı hiss edib. İkinci hissədə isə halı qəflətən pisləşib və dərman içib səhnəyə çıxıb. Tamaşa yekunlaşdıqdan sonra isə teatr rəhbərliyi ilə qərara gəlib ki, xəstəxanaya aparılsın. Dünən (srağagün — red.) axşam saatlarında Mərkəzi Neftçilər Xəstəxanasına yerləşdirilib və həkimlərin nəzarətindədir”.

Ə. Təhməzov bildirib ki, Afaq Bəşirqızına ürək-damar çatışmazlığı diaqnozu qoyulub.

Hazırda aktrisanın səhhəti normallaşıb və müalicə davam etdirilir. Aktrisanın bir neçə gün xəstəxanada qalacağı gözlənilir: “Teatrda heç bir narazılıq olmayıb. Tamaşa yüksək səviyyədə keçib. Bu hal ilk dəfə deyil baş verib, bir neçə dəfə baş verib”, — deyə Ə. Təhməzov bildirib.

## Elmar Məmmədyarov ABŞ-da

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov BMT Baş Assambleyasının 67-ci sessiyasında iştirak etmək məqsədi ilə Nyu-Yorka yola düşüb. Bu barədə APA-ya Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Elman Abdullayev bildirib.

Sentyabrın 28-dək davam edəcək səfər çərçivəsində nazir Elmar Məmmədyarovun İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin illik iclasında, həmçinin GUAM-a üzv ölkələrin xarici işlər nazirlərinin iclasında iştirakı nəzərdə tutulur. Nazir Elmar Məmmədyarovun BMT-nin Baş Assambelyasında çıxışı 28 sentyabr tarixinə planlaşdırılır.

Qeyd edək ki, Nyu-Yorkda Elmar Məmmədyarovun həmçinin bir sıra ikitərəfli görüşləri və ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə görüş nəzərdə tutulur.

## Prezident Administrasiyasında bir sektorun adı dəyişdirilib

Azərbaycan Prezidentinin Administrasiyasının strukturunda dəyişikliklər edilib. APA-nın məlumatına görə, dəyişikliklər nəticəsində Administrasiyanın Hüquq mühafizə orqanları ilə iş şöbəsində yeni sektor yaradılıb, İctimai-siyasi məsələlər şöbəsində isə bir sektorun adı dəyişdirilib.

Dövlət başçısının imzaladığı sərəncamla Prezident Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin nəzdində Hüquqi xidmətlərin göstərilməsi məsələləri sektoru (ştat vahidi 3 nəfər) yaradılıb. Başqa bir sərəncamla isə İctimai-siyasi məsələlər şöbəsinin Siyasi araşdırmalar və analitik təhlil sektorunun adı dəyişdirilib. Həmin sektor bundan sonra Xarici kütləvi informasiya vasitələri və qeyri-hökumət təşkilatları ilə iş sektoru adlanacaq.

## İşğal altındakı ərazimizdə zəlzələ

Dünən Bakı vaxtı ilə 01.37 radələrində Azərbaycanın işğal olunmuş ərazilərində 2,8 bal gücündə zəlzələ baş verib. APA-nın məlumatına görə, zəlzələnin episentri Kəlbəcər rayonundan 10 kilometr cənub-şərqə düşüb. Episentrdə zəlzələ 3-4 bal gücündə hiss olunub.

## ELAN

Dünyaşöhrətli professor, doktor **Cavad Heyət** Bakıda. Hər gün saat 10.00-dan 13.00-a qədər xəstələrini qəbul edir.

**Ünvan: Nizami küçəsi 149, 2-ci blok, 2-ci mərtəbə, mənzil 2 (həyət qapısından girmək lazımdır).**

**Telefon: (012) 493-98-74, (050) 395-18-54**



# Azərbaycan–Rusiya Biznes Forumu keçirilib




Dünən Azərbaycanda səfərdə olan Rusiyanın Volqoqrad vilayətinin qubernatoru Sergey Bojenovun rəhbərlik etdiyi nümayəndə heyəti iqtisadi inkişaf naziri Şahin Mustafayevlə görüşüb. Nazirlikdən verilən məlumata görə, görüşdə Azərbaycan və Rusiyanın subyektləri arasında iqtisadi əməkdaşlığın inkişafı, ticarət əlaqələrinin genişləndirilməsi, qarşılıqlı investisiya qoyuluşu, iş adamları arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi məsələləri müzakirə olunub.

Azərbaycan iqtisadiyyatı və qazanılmış uğurlar barədə məlumat verən nazir Ş.Mustafayev prezident tərəfindən uğurla davam etdirilən sosial-iqtisadi siyasət nəticəsində ölkədə möhkəm siyasi və makroiqtisadi sabitliyin, davamlı və dayanıqlı iqtisadi inkişafın təmin olunduğunu, əlverişli biznes və investisiya mühitinin yaradıldığını vurğulayıb: "2004-2011-ci illərdə ÜDM 3 dəfə, sənaye istehsalı 2,7 dəfə, dövlət büdcəsinin gəlirləri 13 dəfə artıb, yoxsulluq səviyyəsi 5,9 dəfə azalıb. Hazırda ölkənin valyuta ehtiyatları xarici dövlət borcunu təqribən 10 dəfə üstələyir. Azərbaycan-Rusiya siyasi-iqtisadi əməkdaşlığının yüksək səviyyədə inkişafında iki ölkənin dövlət başçılarının qarşılıqlı rəsmi səfərlərinin, aparılan danışıqların xüsusi əhəmiyyəti var. İki ölkə arasında təkmil qanunvericilik bazası yaradılıb və indiyədək 160-dan çox sənəd imzalanıb. Azərbaycan Rusiya arasında iqtisadi sahədə əməkdaşlığın inkişafında Hökumətlərarası Komissiyanın fəaliyyəti əhəmiyyətlidir. 2004-2011-ci illərdə Azərbaycanda Rusiya kapitallı 261 şirkət qeydiyyata alınıb. Azərbaycan iqtisadiyyatına Rusiya tərəfindən 2002-2011-ci illərdə 366 mln. ABŞ dolları həcmində investisiya yatırılıb. Rusiya şirkətləri Azərbaycanda həyata keçirilən bir sıra layihələrdə podratçı qismində iştirak edirlər. Son 10 ildə isə Azərbaycan tərəfindən Rusiyaya təqribən 563 mln. ABŞ dolları həcmində investisiya qoyulub. Hazırda Azərbaycan şirkətləri Rusiyada uğurla fəaliyyət göstərirlər. Ötən il iki ölkə arasında ticarət dövriyyəsi 2,8 mlrd. ABŞ dolları təşkil edib, 2010-cu ilə nisbətən 47 faiz artıb". Azərbaycan və Rusiya Federasiyasının regionları arasında da iqtisadi əlaqələrin inkişaf etdiyini diqqətə çatdıran Ş.Mustafayev hazırda ölkəmizin Rusiyanın 70-dən çox regionu ilə əməkdaşlıq etdiyini vurğulayıb.

Ölkəmizə səfərindən və Azərbaycanın davamlı iqtisadi inkişafından məmnunluğunu ifadə edən Rusiyanın Volqoqrad vilayətinin qubernatoru Sergey Bojenov ölkələrimiz, eləcə də Azərbaycanla Rusiyanın regionları arasında iqtisadi əlaqələrin daha da genişləndirilməsi üçün böyük potensialın olduğunu bildirib.

Sonra Bakı Biznes Mərkəzində İİN-nin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun təşkilatçılığı ilə Azərbaycan-Rusiya biznes forumu keçirilib. Tədbirdə rəsmi şəxslərlə yanaşı, kənd təsərrüfatı, qida sənayesi, tikinti, neft avadanlıqlarının istehsalı, metallurgiya və s. sahələrdə fəaliyyət göstərən 50-dən çox iş adamı iştirak edib.

Tədbirdə AZPROMO-nun rəhbəri vəzifəsinin icraçısı Rüfət Məmmədov Azərbaycanın biznes və investisiya imkanları barədə məlumat verib.

Volqoqrad vilayətinin İqtisadiyyat, Xarici İqtisadi Əlaqələr və İnvestisiyalar naziri Elvira Laqutina təmsil etdiyi ölkənin investisiya imkanlarından danışıb.

Biznes forum iş adamları arasında əməkdaşlığın genişləndirilməsi imkanlarının müzakirə olunduğu ikitərəfli görüşlərlə başa çatıb.

**BƏXTİYAR**

# Zabrat yolunun təmiri başa çatıb

Şəhər şossesinin Sabunçu qovşağından Zabrat dairəsindək olan hissəsində yenidənqurma işləri başa çatıb. "Azəryolservis"dən verilən məlumata görə, uzunluğu 6,3 km olan yol 3 gediş-3 gəliş olmaqla 6 hərəkət zolağından ibarətdir. Yol boyu zəruri olan ərazilərdə kommunikasiya xətləri dəyişdirilib, kommunikasiya quyularının beton örtükləri, baxış qapaqları yenisi ilə əvəzlənib, 3 laydan ibarət asfalt-beton örtük vurulub, xətlənmə işləri ilə yanaşı, müxtəlif yol nişanı, o cümlədən istiqamət və məlumatverici lövhələr quraşdırılıb. Eyni zamanda Zabrat dairəsindən Maştağa yolötürücüsünə qədər olan hissə də təmir olunub.

Qeyd edək ki, yolun əsaslı şəkildə yenidən qurulması Bakı şəhərinin Zabrat, Maştağa, Kürdəxanı, Pirşağı, Məhəmmədi qəsəbələrinin nəqliyyat əlaqəsinin yaxşılaşdırılmasına və şəhərin mərkəzinə gələn nəqliyyat vasitələrinin normal gedişinə şərait yaradıb.

**BƏXTİYAR**

# Peşə təhsili ilə bağlı qanun layihəsi hazırlanır



"Təhsil Nazirliyində peşə təhsili ilə bağlı qanun layihəsi üzərində iş gedir". Bu barədə "525"ə təhsil naziri Misir Mərdanov məlumat verib. Nazir bildirib ki, qanun layihəsi beynəlxalq ekspertlərin tövsiyəsi ilə hazırlanır. Beynəlxalq ekspertlərlə birgə hazırlanması nəzərdə tutulan qanun layihəsində "Təhsil haqqında" qanunda əks olunan məsələlər, peşə təhsili müəssisələrinə qəbul qaydaları, yaş həddi, idarəetmə ilə əlaqədar məsələlər öz əksini tapacaq: "Yəqin ki, tezliklə bu haqda qanun layihəsi hazırlanıb ictimaiyyətə təqdim olunacaq". M.Mərdanov qeyd edib ki, hazırda Təhsil Nazirliyinin tabeliyində 108 peşə təhsili müəssisəsi fəaliyyət göstərir. Onların 47-i peşə liseyi, 1-i peşə tədris mərkəzi, 60-ı peşə məktəbidir.

**S.QARAYEVA**

# Şəhla Əhmədova: "Turizm İnstitutunda beynəlxalq səviyyəli peşəkar kadrlar hazırlanır"



Azərbaycan Turizm İnstitunun (ATİ) tələbələri və inzibati heyət üzvləri beynəlxalq proqramlarda iştirak edirlər. İnstitutdan verilən məlumata görə, Azərbaycanda turizm sənayesinin qeyri-neft sektorunun aparıcı istiqamətlərindən birinə çevrilməsi sahəsində davamlı islahatlar uğurla həyata keçirilir.

"Turizm sahəsinin inkişafı maddi mənfəətin qazanılması ilə yanaşı, ölkə vətəndaşlarının, əsasən sabahın qarantı sayılan gənclərimizin etibarlı iş yerləri ilə təminatına, konkret desək, insanların sosial rifahının daha da yaxşılaşmasına hesablanmış strateji məqsədlərdən biri sayılır. Ölkəmizdə turizm sektorunun dinamik inkişafı yüksək ixtisaslı kadr hazırlığından birbaşa asılıdır. Məhz Azərbaycan Turizm İnstitutu yarandığı gündən təhsil-təcrübə-təlim-tədqiqat modelinin konkret şəraitdə gerçəkləşməsinə böyük önəm verir. İnstitutda düşünülmüş təhsil imkanları sayəsində ATİ tələbələri və inzibati heyət üzvləri beynəlxalq proqramların fəal iştirakçılarına çevrilə bilirlər". Bu fikirləri ATİ-nin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Şəhla Əhmədova müxbirimizə söhbət əsnasında bildirib. Ş.Əhmədova institutunda beynəlxalq səviyyəli peşəkar kadr hazırlığına 2007-ci ildən başlanıldığını vurğulayıb: "Erasmus Mundus proqramına uyğun olaraq təhsil səviyyəsinin artırılması məqsədi ilə tələbə və inzibati heyət işçilərinin mübadiləsində maraqlıyıq. 2007-ci ildən bu günə kimi ATİ tələbələrindən və inzibati heyət üzvlərindən 32 nəfəri Yunanıstan, Portuqaliya, İtaliya, Böyük Britaniya, Bolqariya, Latviya və Fransada, 1 semestrlik tələbə mübadiləsi üzrə Almaniyanın Yade universitetində 6 nəfər ,o cümlədən 3 nəfər yay dil kursunda, hazırda 2 nəfər isə Avstriyanın İMC KREMS Tətbiqi Elmlər Universitetində 1 semestr proqramı üzrə təhsillərini davam etdirirlər. ATİ-nin Menecment ixtisası üzrə təhsil alan tələbəsi Teymur Əsədov isə, Erasmus Mundus proqramı çərçivəsində Latviyanın Rezekne şəhərindəki (Rezeknes Augstskola) Ali Təhsil İnstitutunda bakalavr pilləsində 1il təhsil alıb və doğma instituta qayıdıb. T.Əsədov Latviyanın Ali Təhsil İnstitutunda çalışqan tələbə kimi tanınmaqla bərabər, Riqa şəhərində keçirilən "Milli mətbəx" festivalınında iştirakçısı olub. Azərbaycanın məşhur yeməklərini — yarpaq dolmasını, plovu, ləvəngini stend sərgidə nümayiş etdirib. Festival iştirakçıları Azərbaycana gələndə bu təamlardan dadmaq niyyətində olduqlarını bildiriblər. T.Əsədov idman yarışlarında da uğurlu çıxışlar edib. Ağır atletika üzrə keçirilən beynəlxalq yarışda bürünc medal qazanıb. Onu da qeyd edim ki, Latviyanın Ali Təhsil İnstitutunda mühazirə və seminarlar ingilis dilində keçirilir. Ölkədə ilk dəfə ikili diplom təcrübəsinə imza atan ATİ-nin tələbəsi üçün dərslərin məhz ingilis dilində keçirilməsi problem olmayıb. Sevindirici haldır ki, daha bir tələbəmiz məhz avropa təhsilli mütəxəssis kimi institutumuzun nüfuzunu qoruyanlar sırasında olacaq".

**S.MÜRVƏTQIZI**

# "Voloşin sentyabrı" X Beynəlxalq Şeir Simpoziumu haqqında təəssüratlar





"Artıq şeir ölüb!", " Ədəbiyyat məhv olmaq üzrədir!", "Poeziya daha kimə lazımdırə" ...Yaşadığımız bu çətin və qarmaqarışıq dövrdə bunlara bənzər cümlələri tez-tez eşidirik. Və hətta, bəzən bu kəlmələrin doğruluğuna inanmaq belə istəyirik.

Amma bu fikirlər ədəbiyyat tarixinin dolanbac yollarında birinci dəfə deyil ki, ağıla glir. 1821-ci ildə Vyazemskiyə məktubunda görün gənc Puşkin nə yazırdı: "Nə deyirsiniz deyin, əsrimiz şairlər əsri deyil. Təəssüflənməyə dəyməz, amma yenə də çox təəssüf! Əsil şairlərin çevrəsi getdikcə daralır, oxucu yoxluğundan çox keçməz ki, şeirlərimizi birbirimizin qulağına pıçıldayarıq. Buna da şükür!" Başqa bir önəmli rus şairi Tyutçev baltanı kökündən vurmuşdu: "V naş vek stixi jivut dva-tri mqnovenya. Rodilis utrom, k veçeru umrut..." Bu örnəkləri, yaşadığımız zamana yaxın yazıldıqlarından önə çəkdim. Bütün bunlardan daha öncə Füzuli dədəmiz deməmişdimi: "Bir dövrdəyəm — nəzm olub xar."

Sonrakı ədəbi gedişatlar başqa həqiqətləri diqtə etdi: Necə ki, dünya var və necə ki, insanları düşünməyə vadar edən misralar və bu misraları yazan şairlər dünyaya gəlirlər — nə şeir, nə də ədəbiyyat məhv olmayacaq. Şeir də yaralı cəngavər kimi, özündə güc tapıb yenə ayağa qalxacaq, yenə də insanları heyrətə gətirəcək. Çünki Baxsanın dediyi kimi, "Kitab öz dəyərbiçilməz yükünü həssaslıqla daşıyan, zaman dalğalarında səyahətə çıxmış fikir gəmisidir". Onun, qabarma və çəkilmələrdən, gözlənilməz qasırğalardan çəkinəcəyi yoxdur. Və əlində dəyərli bir kitab olan adam heç zaman tənha olmaz.

Bu günlərdə iştirak etdiyim "Voloşin sentyabrı"10-cu beynəlxalq şeir simpoziumu bu həqiqətin birbaşa təsdiqi idi. Dünyanın müxtəlif ölkələrindən gəlmiş, məsafələrə, yollara baxmadan yalnız poeziya adlı bir ocağın işığına toplaşmış yüzdən artıq şairlə bir arada olmaq, həvəslə etdikləri çıxışları eşitmək və onları böyük bir ilgi ilə dinləyən sənətsevərləri görmək, insana həyatın hər bir məhrumiyyətini və acısını unutduracaq bir güc verirdi.

Sentyabrın 10-16 tarixlərində davam edən simpoziuma Türkiyədən, İsraildən, Polşadan, Amerika Birləşmiş Ştatlarından, Almaniyadan, Belçikadan, Estoniyadan, İrlandiyadan, eləcə də, Rusiyanın və Ukraynanın ən müxtəlif şəhərlərindən şairlər, yazıçılar, incəsənət xadimləri Koktebel şəhərinə şeir işığına toplaşmışdılar. Tam 6 gün davam edən poeziya gecələrinin hər biri tədbirlərlə, yarışmalarla, toplantılar və çıxışlarla zəngin idi.

Bu simpoziumda doğma vətənimiz Azərbaycanı, Türkiyənin Çanaqqala şəhərində yaşayan sevimli şairimiz Məmməd İsmayıl və mən (Afaq Şıxlı) təmsil edirdik. Hər ikimiz Vətəndən uzaqda yaşamağımıza baxmayaraq ürəyi öz doğma torpağına bağlı olan türk övladı kimi, bu günlərdə çiynimizə düşən məsuliyyətin böyüklüyünün fərqindəydik.

Ayın 11-də M. Voloşinin ev muzeyinin həyətində, günəşli havada ədəbiyyat bayramının açılışı oldu. Gül-çiçək və yaşıllıqlar içərisindəki bu həyətin aurası da bir başqaydı. Gərək Voloşinin sağlığında, gərəksə də ölümündən sonra bu həyətə kimlər gəlib getməmişdi ki!

Muzeyin həyətində ayrı bir ruh, ayrı bir atmosver vardı. Sanki mərhum şair özü buraya toplaşanlara xeyir-dua verirdi:

1877-ci ilin may ayında Kiyevdə doğulan Maksimilian Voloşin (Maks) on üç yaşından şeir yazmağa başlamış, sonralar şair, rəssam və tərcüməçi kimi ün qazanmışdır.

Universitetdə təhsilini yarımçıq buraxan gənc Maks bəxtini Parisdə sınamaq qərarına gəlir. Parisdə okkultizmlə, mistik təlimlərlə maraqlanan keçmiş universitet tələbəsi, istedadlı şair və rəssam velosipedlə səyahətə çıxır, bütün Avropa şəhərlərini gəzib dolaşır, hətta yolu Misirə qədər uzanır.

Parisdə rəssam Marqarita Sabaşnikova ilə tanış olur və evlənir. Böyük maq və ekstrasens, əfsanəvi Rudolf Şteyner sevgililərə xeyir-dua versə də, bu kəbinin ömrü qısa olur, çox keçmədən Marqarita ilə Maksın yolları ayrılır.

O, inqilabi çevrilişlərə baxmayaraq Vətənə dönür və "Vətən — anadır, xəstə olarkən oğul öz anasının yanında olmalıdır!" — deyir.

Siyasətə qarışmayan, bohem sənətkar həyatı yaşayan Voloşin Qara dəniz sahilində, Koktebeldə anasına məxsus ərazidə öz layihəsi əsasında mülk tikdirir. Burda onun geniş emalatxanası və zəngin kitabxanası yerləşirdi. Mülkün iki otağı anası Yelena Ottobaldovna üçün ayrılmışdı. Üçmərtəbəli binada otel odalarına bənzər daha on beş otaq mövcuddu. Bu otaqlar şairin sevimli dostları və müsafirləri üçün nəzərdə tutulmuşdu: zəmanənin görkəmli rəssamları, şairləri, yazıçıları, Bryusov, Erenburq, Balmont, Aleksey Tolstoy, Qumilyov, Svetayeva, N.Rerix və başqaları bu evin qapısını tez-tez döyərdilər... Xəyalpərəst Voloşin öz evini əsl sənət məbədinə çevirmişdi.

1924-cü ildə Xalq komissarlığının icazəsi ilə, o öz evini Ədəbiyyat fondunun yaradıcılıq evinə çevirir. 1927-ci il martın 9-da, onun bütün gələcək çətinliklərini paylaşacaq və yaradıcılıq irsinə sahib çıxa biləcək bir qadınla — Mariya Stepanovna Zabolotskaya ilə evlənir.Dövrünün möhtəşəm şəxsiyyətlərindən biri olan, öz evini Yazıçılar İttifaqına vəsiyyət edən Maksimilian Voloşin 1932-ci il avqustun 11-də ikinci insultdan sonra vəfat edir. Öz vəsiyyətinə əməl edərək onu Koktebel yaxınlığındakı Küçük-Yanıçar dağının təpəsində dəf edirlər.Hər il yüzlərlə əbəbiyyatsevərlər, şairin poeziya qədər sevdiyi Qara dənizin sahilindən bir neçə daş götürüb (bir daha doğma sahillərdə gəzə bilməyəcək şairin vəsiyyətlərindən biri də bu idi) onun qəbrini ziyarət etmək üçün bu dağın başına çıxırlar.)

Bayramın açılışında çeşidli ölkələrdən gələn sənət adamlarına söz verilir və onlar da öz təbriklərini meydana toplaşanlara çatdırırlar. Məmməd müəllimin çıxış edəcəyi əvvəlcədən planlaşdırılmışdı, amma bizə məlum olmayan səbəbdən ona məclisin sonuna doğru söz veriləcəkdi. O da hər zamankı kimi bu olumsuzluğu da öz xeyrinə çevirməyi bacaracaqdı. Çıxışına hamının təkrarladığı şablon cümlələrlə başlamaq əvəzinə: "Bizim toy məclislərində aşığın yaxşısını sona saxlayarlar, görünür məclisi aparan xanım əfəndi buna görə mənə sona yaxın söz verdi", —dediyində məclisə mehriban bir gülüşmə düşdü və şairimizi hələ çıxışının əvvəlində alqışlamağa başladılar. Burada Məmməd İsmayıl nitqinin bütün detallarını sadalamaq fikrindən uzağam, amma bir fikrini yazmadan keçməyəcəyəm, əvvala o məclisə toplaşanları, "bədnam qonşu"muzun nümayəndəsinin gözünün içinə baxa-baxa, yalnızca Azərbaycan yazarları adından deyil, həm də Türkiyəli yazarlar adından da alqışladı. Çıxışının sonunda dediyi fikirlər həqiqətən də diqqətəşayan idi: "Bir zamanlar rus orduları Erzuruma qədər şərqi Anadolunun böyük bir ərazisini işğal etmişdilər, rus orduları türk torpaqlarından çoxdan, Azərbaycandan isə iyrimi il öncə çəkilmək zorunda qaldı. Amma rus ordularının deyil, rus yazıçı və şairlərinin mənəvi təsiri Türkiyə və Azərbaycan coğrafiyalarında hələ də davam edir və yəqinki sonuncu oxuyacaq adam qalana qədər də davam edəcəkdir. Bizim Afaq Şıxlı ilə M.Voloşin şeir festivalına gəlişimiz də bunun bir sübutudur! Dostoyevski demişkən, "dünyanı gözəllik xilas edəcəkdir!"

Məmməd müəllim istəyirdi ki, biz bu ədəbiyyat bayramında Azərbaycan poeziyasını ən yüksək səviyyədə dinləyicilərə çatdıra və ruhlarına aşılaya bilək. (...Gedişat göstərdi ki, heç bir çətinliksiz biz buna nail olacaqdıq).

Məmməd İsmayılın, onlarla ölkənin nümayəndələri arasında xüsusi hörmət və ehtiram mənbəyi olması məndə öz xalqımın böyük şairinə pərəstiş hissi oyatmaya bilmirdi. Və mən Azərbaycanımızın adının hər dəfə məhəbbətlə anılmasından, Azərbaycan bayrağının Simpozium afişalarında birinci yerdə həkk olunmasından qürur duyurdum.

Hər gün müxtəlif ölkələrin poeziya gecələri keçirilir və biz də imkan dairəsində bütün bu mərasimlərdə iştirak etməyə çalışır, vacib olan heç nəyi nəzərdən qaçırmırdıq.

Ayın 12-də olan ən maraqlı tədbirlərdən biri — gözəl şairlər Viktor Hoffmanın və Gennadi Kalaşnikovun çıxışları idi.

Öz qeyri-adi baxışları, dinləyiciləri hipnoza sala biləcək inamı ilə altmış iki yaşlı, ucaboylu Viktor və onun tam əksi olan, mehriban, sadə, nisbətən gənc Gennadi Kalaşnikov öz çıxışları ilə maraqlı bir təzad yaradaraq uğur qazandılar. Hər iki şairin M.İsmayılla öncədən dostluğu vardı. "Drujba narodov" jurnalı iyun nömrəsində G.Kalaşnikovun tərcüməsində şairimizin "Danışan çinarlar" lirik poemasını dərc etmişdi. Həmin günün axşamı təntənəli şam yeməyi zamanı Beynəlxalq Voloşin mükafatı nominantlarının təbrik mərasimi keçirildi.

Sabahısı gün, müxtəlif çıxışlar və yarışmalardan əlavə, dəyirmi stol arxasında "Ədəbi festivalların əhəmiyyəti və labüdlüyü" mövzusunda görüş təşkil olunmuşdu. Söhbətdə A. Korovin (Moskva), N. Miroşniçenko (Koktebel), M. İsmayıl (Azərbaycan-Türkiyə), Liliya Karas, S. Minakov (Xarkov), M. Sinelnikov (Moskva) və başqaları iştirak edirdilər. Görüş çox maraqlı keçdi. Mövzu lazımlı məsələlərlə əlaqələndirilərək genişləndirildi.

Axşamüstü isə Qaradağa səyahət etmək üçün dəniz gəzintisi təşkil olunmuşdu. Sönmüş vulkanlardan biri sayılan Qaradağ müxtəlif fiqurları andıran yönləri ilə təbiətin möhtəşəmliyini bir daha sübut edirdi. Biz Qızıl darvaza (Şeytan-kapu), Qarağac təpəsi, Xoba-təpə (mağaralı təpə), Xırsız-liman, Mayak-təpə və s... fotoşəkillərini çəkir, bu yerlərdən ayrılmaq istəmirdik. Öz qəribəlikləri ilə insanı heyrətə gətirən bu möcüzəyə əl çatacaq qədər yaxınlaşmaq həqiqətən də unudulmaz bir xatirəyə çevrildi. Və mən hər qarış torpağından, yer-yurd adlarından türklük yağan bu yerlərdə olmağımdan qürur duyurdum. Sahilboyu düzənlənən sərgilərdə, alış-veriş yerlərində, bazar və dükanlarda tez-tez Krım tatarları ilə qarşılaşır, rus və ukraynalı şair dostlarımzın yanında tatar qardaş-bacılarımızla onların öz dilində danışırdıq. "Krım tatarları dönür Krıma" misraları da yolumuza yoldaşlıq edirdi.

Ayın 14-də Simperopol şəhərində Rusiya Elm və Mədəniyyət mərkəzi tərəfindən M. Voloşinin 135 illiyinə həsr olunmuş "Müasir poeziyanın səsləri" gecəsi təşkil olunmuşdu. Burada simpozium iştirakçıları arasından sayseçmə şairlər çıxışlar edəcək, öz ürək sözlərini deyəcək və bir neçə şeir ifa edəcəkdilər. Hər şey düşünüldüyündən daha maraqlı oldu. Gecəni şair Evqeniy Çiqrin açdı. Yerli şairlərin çıxışından sonra, o, Azərbaycan adına çıxış edəcək şairimizi, xüsusi bir ehtiramla səhnəyə dəvət etdi. Məmməd İsmayıl çıxışına: "Mən inanıram ki, bu salonda heç zaman mənim mübarək Azərbaycan-türk dilimdə şeir səslənməyib, bəlkə heç bundan sonra da səslənməyəcək, ona görə də ilk şerimi öz dilimdə oxuyacağam!" — kəlmələrilə başladı. Onun iki dildə oxuduğu şeirlər, söylədiyi gözəl nitq salonda gurultulu alqışlarla qarşılandı. Gələnlər arasında Ukrayna və Rusiya jurnalistləri də vardı, onlar Məmməd bəylə tanış olduqları və ondan reportaj ala bildikləri üçün xoşbəxt olduqlarını bildirdilər.

Beləcə bir gün daha keçdi...

Bu günlərdə bizi heyrətə gətirən nüanslardan biri də, axşam toplantılarından birindən sonra, Polşadan gələn şair və publisist Tomaş Lyubenskinin qəflətən yıxılıb huşunu itirməsi oldu. Ürəyində problem olan şair Feodosiya şəhər xəstəxanasına çatdırıldı. İki günə yaxın ciddi rejimdə müalicə olunan Lyubenski, ayın 15-də olan Polşa Poeziyası tədbirində iştirak etmək üçün, səhhətini təhlükədə qoyaraq xəstəxananı tərk etmişdi. Sənətə və şeirə bu qədər məhəbbət və dəyər verməsi hər kəsin qəlbində polşalı şairə dərin rəğbət hissi doğurdu.

**(Ardı 7-ci səh.)**

# Binə Ticarət Mərkəzini su basdı

## SAHİBKARLARA KÜLLİ MİQDARDA ZİYAN DƏYDİ

*(Əvvəli 1-ci səh.)*

Satıcılar ticarət mərkəzi rəhbərliyinin onların dükanlarını zorla sığorta etdirdiyini də bildirib: "Amma eşitmişik ki, sığortadan bizə qəpik də verməyəcəklər".

APA-nın müxbiri ticarət mərkəzində olarkən elektrik verilişinin dayandırıldığı məlum olub. Sahibkarlar bildirib ki, bir neçə gün əvvəl baş vermiş zəhərlənmə hadisəsindən sonra onların generator işlətməsinə icazə verilmir: "Dükanlara sayğac qoyulmayıb. Kondisioner olan dükandan ayda 90, kondisioner olmayan dükanlardan isə 40 manat pul yığırlar. Biz işlətdiyimiz enerjidən artıq pul verdiyimizi bilirik. Amma pulu artıqlaması ilə ödədiyimizə baxmayaraq, işıqlar gördüyünüz kimi yanmır".

Sahibkarlar ticarət mərkəzi rəhbərliyinin hər ay onlardan təxminən 1000 manat məbləğində "kommunal xidmət haqqı" yığmasına da etiraz edib: "Alver az gedən dükanlardan 850, öndə olanlardan 1050 manat yığılır. Bu boyda da kommunal xidmət haqqı olar?!"

Ticarət mərkəzində olarkən APA-nın suallarını bu qurumun hüquqşünası Fuad Cəfərov cavablandırıb. O, məhz özünün açıqlama verməsini ticarət mərkəzinin sahibi Kəbirə Məmmədovanın müsahibə vermək istəməməsi ilə izah edib: "Onun sözünü biz deyirik".

F.Cəfərov sahibkarların ticarət mərkəzinin rəhbərliyinə ünvanladığı bütün ittihamları rədd edib. Mərkəz rəhbərliyinin heç kəsin dükanını sığorta etdirmədiyini deyən hüquqşünas subasma ilə əlaqədar sahibkarların özlərini günahlandırıb: "Biz əvvəlcədən xəbərdar etmişik ki, dükanda olanlara görə cavabdeh deyilik. Bu məsələ ilə bağlı müqavilədə də göstərilib. Satıcılara əvvəlcədən demişdik ki, malları yerə qoymasınlar. Qoyublar, su basıb. Gecə buranı su basanda əməkdaşlarımız və ticarət mərkəzinin rəhbərliyi saat 3-də bura gəlmişdi. Həmin vaxtdan ticarət mərkəzinə yığılmış su çəkilməyə başlayıb".




F.Cəfərov sentyabrın 24-də ticarət mərkəzində elektrik enerjisinin hansı səbəbdən kəsilməsindən xəbərsiz olduğunu deyib: "Biz hələ dəqiq bilmirik ki, "Bakıelektrikşəbəkə"-dən bizə gələn xətdə, yoxsa bizim naqillərdə problem var".

Gündəlik "kommunal xidmət haqqının" sahibkarların dediyinin əksinə olaraq azlığından şikayətlənən hüquqşünas obyektlərdə sayğac olmadığını etiraf edib: "Biz "Bakıelektrikşəbəkə"yə hər ay yüz minlərlə manat pul ödəyirik".

Ticarət mərkəzindəki dükanların sayını açıqlamayan F.Cəfərov sentyabrın 16-da burada baş verən yanğınla əlaqədar hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən saxlanılan olmadığını da bildirib. Hüquqşünas "sahibkarlara dəyən ziyanla bağlı onlara hər hansı kömək göstəriləcəkmi?" sualına isə konkret cavab verməyib. O, sahibkarların dükanlarını su basmasını "təbii fəlakət nəticəsində baş vermiş hadisə" adlandırıb: "Biz onların mallarının digər dükanlara köçürülməsinə kömək edəcəyik, həmin dükanları mühafizəçilərlə təmin edəcəyik. Artıq sahibkarlarla danışmağa başlamışıq".

APA-nın əməkdaşı yenidən sahibkarlara müraciət edib. Lakin sahibkarlar mərkəz rəhbərliyi və ya nümayəndələrindən onlarla heç kəsin maraqlanmadığını bildiriblər.

# "Azərbaycanda Türkiyə həftəsi" başlayıb

"Azərbaycanda Türkiyə həftəsi" başlayıb.

Azərbaycan Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzindən APA-ya verilən məlumata görə, tədbirlər çərçivəsində Türkiyə və Azərbaycan beyin mərkəzlərinin nümayəndələri, millət vəkilləri, universitet müəllimləri və media işçilərindən ibarət nümayəndə heyəti Gəncə, Lənkəran və Ağdam şəhərlərində rəsmi səfərdə olacaq.

Prezident yanında Strateji Araşdırmalar Mərkəzinin direktoru Fərhad Məmmədov, APA informasiya agentliyinin direktoru Vüsalə Mahirqızı, Milli Məclis Aparatının analitik informasiya şöbəsinin müdir müavini Hatəm Cabbarlı, Türkiyə Xarici İşlər Nazirliyinin Strateji Araşdırmalar Mərkəzinin direktoru Bülent Araz, Beynəlxalq Antalya Universitetinin rektoru Cihat Göktepe, Yalova Universiteti Diplomatiya Akademiyasının rəhbəri Nevra Esentürk, Türkiyə XİN SAM-ın nümayəndəsi Sərkan Razi, "Today's zaman" qəzetinin müxbiri Lamiyə Adılqızı, millət vəkili Fazil Mustafa, Prezident yanında Strateji Araşdırmalar Mərkəzinin aparıcı elmi işçisi Cavid Vəliyev, Azərbaycan-Türkiyə İş Adamları Birliyinin şöbə müdiri Kənan Aslanlı, USAK direktor müavini Kamer Kasım, AKP Ankara millət vəkili Tülay Salamoğlu, Türkiyə XİN SAM, Uludağ Universitetinin müəllimi Ferhat Pirinççi, SETA eksperti Ufuk Ulutaş, Türkiyə XİN SAM-ın nümayəndəsi Özcan Gültekindən ibarət nümayəndə heyəti Gəncə şəhərində Gəncə Dövlət Universitetinin rektoru Elman Məmmədov və Lənkəran şəhərində Lənkəran Dövlət Universitetinin rektoru, professor Asəf İsgəndərov və universitetin nümayəndələri ilə görüşlər keçirəcəklər.

Görüşlər zamanı "Tarixdən günümüzə: Türkiyə-Azərbaycan Münasibətləri" və "Azərbaycan-Türkiyə Münasibətləri Regional Kontekstə" mövzuları ətrafında müzakirələr nəzərdə tutulur.

Bu görüşlərin və müzakirələrin keçirilməsinin əsas məqsədi Türkiyə-Azərbaycan münasibətlərinin inkişafına dəstək vermək, qarşılıqlı olaraq Azərbaycan və Türk ictimaiyyətini Türkiyə və Azərbaycan məsələləri haqqında məlumatlandırmaqdır.

Xatırladaq ki, 2011-ci ilin oktyabr ayında Azərbaycan Respublikası Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi Türkiyənin beş səhərində "Azərbaycan Həftəsi" keçirib.

Sentyabrın 26-da SAM-da Azərbaycanda "Türkiyə həftəsi"nin yekunlarına dair mətbuat konfransı keçiriləcək.

# *Mələhət İbrahimqızı:* "Həmsədrlərin fəaliyyətini başa vurmaq zamanı çatıb"

"ATƏT-in Minsk qrupunun həmsədrləri Dağlıq Qarabağ münaqişəsinin həllinin mürəkkəbləşməsi səbəblərini başqa yerdə axtarmalı deyil". Bunu mətbuata açıqlamasında millət vəkili Mələhət İbrahimqızı deyib. Millət vəkilinin bildirdiyinə görə, münaqişənin həllinin mürəkkəbləşməsi məhz həmsədrlərin işinin nəticəsidir. M.İbrahimqızı deyib ki, həmsədrlər bu faktı etiraf etməlidirlər:

"Həmsədrlər hər dəfə bölgəyə gəlib gedəndən sonra "balanslaşdırılmış" bəyanat verir. Amma Azərbaycan xalqı, bir milyondan çox məcburi köçkün torpaqlarımızın işğaldan azad edilməsini gözləyir.

Onlar problemin həllinin çətinləşməsinin səbəbkarının özləri olduğunu deməyə cəsarət etmirlər. Həmsədrlər 20 il müddətində ciddi bir iş görməyiblər və buna qadir deyillər. Son proseslər bir daha göstərdi ki, Minsk qrupunun fəaliyyətini başa vurmaq zamanı çatıb".

**VAHAB**

# *Bahar Muradova:* "Hər şeyi sıfırdan başlamaq Qarabağ münaqişəsinin həllini uzada bilər"

"Bu bir reallıqdır ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı indiyə qədər istifadə olunan mexanizmlər təsirsiz qalıb. Ona görə də, münaqişənin həlli hələ də uzanır". APA-nın xəbərinə görə, bu fikirləri hakim Yeni Azərbaycan Partiyasının saytına açıqlamasında Milli Məclis sədrinin müavini Bahar Muradova deyib.

B.Muradova bildirib ki, problemin uzanması bu yöndə ən müxtəlif fikirlərin və təkliflərin gündəmə gəlməsinə səbəb olur. Onun fikrincə, həmin təklifləri müzakirə etmək olar: "Amma hesab edirəm ki, Azərbaycanın münaqişənin digər beynəlxalq təşkilatlar müstəvisində həllinə çalışması ATƏT-in Minsk Qrupunun mövcudluğuna maneçilik törətmir. Yəni Azərbaycan tərəfi bu prosesi paralel şəkildə apara bilər. Ölkəmiz sülh danışıqlarına sadiqliyini hər zaman bəyan edib və bunu əməlində də göstərərək digər beynəlxalq təşkilatların da Dağlıq Qarabağ münaqişəsinin həllinə töhfə verməsinin zəruriliyini vurğulayıb. Biz bu problemi BMT və digər qurumlarda da qaldırmışıq. Hazırda Azərbaycanın işğal olunmuş əraziləri ilə bağlı BMT Baş Assambleyasının gündəliyində iki məsələ var və onların müzakirəsi gözlənilir. Yəni bütün istiqamətlərdə səylərimizi davam etdirməliyik. Həmsədrlərin fəaliyyətinin bizi qane etmədiyini dəfələrlə bəyan etmişik. Hesab edirəm ki, konkret siyasi iradə olarsa, bu format çərçivəsində də münaqişənin həllinə nail olmaq mümkündür. Amma hər şeyi sıfırdan başlamaq məsələni daha da uzada bilər".

## Pavel Qraçov öldü

Rusiyanın keçmiş müdafiə naziri Pavel Qraçov vəfat edib. APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, ordu generalı Pavel Qraçov Vişnevski adına hərbi hospitalın reanimasiya şöbəsində srağagün axşam saatlarında dünyasını dəyişib.

Onun ölümünün səbəbi açıqlanmır.

Qeyd edək ki, ordu generalı Pavel Qraçov 1992-1996-cı illərdə Rusiyanın müdafiə naziri olub.

Dünən Rusiyanın keçmiş müdafiə naziri Pavel Qraçov ölümün səbəbləri açıqlanıb. APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, ordu generalı Pavel Qraçov insultdan dünyasını dəyişib. Onun sentyabrın 12-də Vişnevski adına hərbi hospitalın reanimasiya şöbəsinə yüksək arterial qan təzyiqi diaqnozu ilə yerləşdirildiyi bildirilib.

Qeyd edək ki, bir sıra Rusiya KİV-ləri Pavel Qraçovun həddindən çox alkoqol qəbul etdiyi və göbələkdən zəhərləndiyi barədə məlumat yayıb.

## ANS-ə növbəti xəbərdarlıq

Dünən Milli Televiziya və Radio Şurasının (MTRŞ) növbəti iclası keçirilib. MTRŞ-dan APA-ya verilən məlumata görə, iclasda "ANS Müstəqil Yayım və Media Şirkəti" tərəfindən teleradio yayımı sahəsində qanunvericiliyin tələblərinin pozulması faktı üzrə inzibati icraata dair işə baxılıb. 21.09.2012-ci il tarixdə, saat 17:00-19:00 intervalında ANS televiziyasının efirində yayımlanan "İkinci həyat" verilişində "Uşaqların və yetkinlik yaşına çatmayanların fiziki, əqli və mənəvi inkişafına ziyan vura bilən və kodsuz yayımlanan, o cümlədən erotikanı və qəddarlığı əks etdirən proqramlar üçün Xüsusi Qaydalar"ın 2.7, 2.8-ci bəndlərinin tələbləri pozulduğundan Milli Televiziya və Radio Şurasının qərarına əsasən "ANS Müstəqil Yayım və Media Şirkəti"nə xəbərdarlıq elan edilib.

## Bir neçə prokuror işdən çıxarıldı

Azərbaycanda bir neçə rayonun prokuroru işdən çıxarılıb. APA-nın məlumatına görə, baş prokuror Zakir Qaralovun müvafiq əmrləri ilə Sabirabad rayon prokuroru Seyfulla Aslanov, Şamaxı rayon prokuroru Füzuli Musayev, Oğuz rayon prokuroru Afər Nəsirov və Balakən rayon prokuroru Vəli Əhmədov səlahiyyət müddətlərinin başa çatması ilə əlaqədar tutduqları vəzifədən azad edilərək sərəncama götürülüblər.

Hazırda Sabirabad rayon prokurorunun vəzifəsini Elxan Məmmədov, Şamaxı rayon prokurorunun vəzifəsini Mirqasım Cəfərov, Oğuz rayon prokurorunun vəzifəsini Natiq Eyvazov, Balakən rayon prokurorunun vəzifəsini isə Akif Şıxıyev əvəz edir.

Onu qeyd edək ki, bu il respublika üzrə 10-dan çox rayon prokurorunun səlahiyyət müddəti başa çatır. Bu yaxınlarda daha bir neçə rayon prokurorunun dəyişdiriləcəyi gözlənilir.

# Azərbaycan şirkəti Tiflisdə yeni şəhərcik tikir

Gürcüstan paytaxtında yeni şəhərcik salınır. APA-nın Gürcüstan bürosunun məlumatına görə, yeni layihənin açılışında Tiflis meri Qiqi Uqulava, "AS GROUP" (Azərbaycan) şirkətinin prezidenti Şahin Mövsümov və digər rəsmilər iştirak edib.

Qonaqlar 22 yaşayış binasından ibarət olacaq şəhərciyin ərazisinə baxış keçiriblər. Sonra layihənin tikilişini həyata keçirəcək "AS Group" şirkətinin yeni ofisinin açılışı olub. Qiqi Uqulava və Şahin Mövsümov yeni salınacaq şəhərciyin maketi ilə tanış olublar. Tədbirdə layihədən bəhs edən film də nümayiş olunub.

Tiflis meri Qiqi Uqulava jurnalistlərə açıqlamasında bu layihənin öncə Gürcüstan və Azərbaycan arasında dostluq rəmzi olduğunu bildirib: "Bu layihədə 2 min nəfərdən çox işçi çalışacaq. Biz dostluğa və tərəfdaşlığa həmişə hazırıq. Hər iki ölkə arasında, eyni zamanda Tiflis və Bakı arasında tarixi dostluq var. Biz çox şadıq ki, bu tarixi layihənin tikintisində iştirak edirik. Dostluğumuz getdikcə inkişaf edir və Azərbaycan şirkətləri Gürcüstanda ən çox vergiödəyici şirkətlərə çevrilirlər".

"AS Group"un prezidenti Şahin Mövsümov isə layihənin 40 min kv. metrdən çox sahəni əhatə edəcəyini və sosial bir layihə olduğunu deyib: "Bu, Gürcüstanda ən böyük tikinti layihəsidir. Biz 527 min kv. metrdən çox yaşayış binası tikəcəyik. Şirkətimiz alıcılara mətbəx mebeli də daxil olmaqla bütün standartlara cavab verən tikintisi tam başa çatmış yaşayış mənzilləri verəcək. Bu şəhərcikdə 1200 şagirdlik iki məktəb, müasir uşaq bağçası və bütün standartlara uyğun klinika istifadəyə veriləcək. Ən vacibi odur ki, layihədə biz Tiflisin Ortaçala deyilən məhəlləsində məskunlaşan azərbaycanlıları 1200 iş yeri ilə təmin edəcəyik.

Ümumiyyətlə, şəhərcikdə 20 min nəfər məskunlaşacaq. Bu, Gürcüstanda və Azərbaycanda bir rayonun əhalisi deməkdir".

# ADP-nin növbəti toplantısı keçirilib

Dünən Azərbaycan Demokrat Partiyası (ADP) İdarə Heyətinin növbəti toplantısı keçirilib.

Partiyanın mətbuat xidmətindən APA-ya verilən məlumata görə, toplantıda dünya ictimaiyyəti Suriya olaylarının qarşısını almaq üçün bütün səylərini birləşdirməyə çağırılıb, Rusiyanın Azərbaycanın sərhədləri hüdudunda Ermənistanla birgə hərbi təlimlərə başlamasından ciddi narahatlıq ifadə olunub, bunun ATƏT-in Minsk Qrupunun həmsədri olan dövlət kimi üzərinə götürdüyü sülh missiyası ilə bir araya sığmadığı diqqətə çatdırılıb. İdarə Heyəti üzvləri Rusiyada "Azadlıq" radiosunun orta dalğada yayımlanmasının dayandırılmasına edilən cəhdləri də pisləyib. Yığıncaqda Gürcüstanda hadisələrin gərginləşməsindən, rusiyapərəst qüvvələrin M. Saakaşvilini devirərək hakimiyyətə gəlmə cəhdlərindən narahat olduğunu bildirilib.

# 2013-cü ilin büdcə layihəsi Prezidentə təqdim olundu

Baş nazir Artur Rasi-zadənin sədrliyi ilə Azərbaycan Respublikasının 2013-cü il və sonrakı üç il üçün dövlət büdcəsinin və icmal büdcənin layihələri, həmçinin iqtisadi və sosial inkişaf konsepsiyası müzakirə edilib, həmin dövr üçün proqnoz göstəriciləri dinlənilib. Nazirlər Kabinetinin mətbuat xidmətindən verilən məlumata görə, iclası giriş sözü ilə açan Baş nazir A.Rasi-zadə qeyd edib ki, dövlət büdcəsinin layihəsi Prezident İlham Əliyevin rəhbərliyi altında son illərdə xalqın maddi rifahının daha da yaxşılaşdırılması, ölkə iqtisadiyyatının sürətli inkişafı nəticəsində əldə olunmuş nailiyyətlər, ölkənin iqtisadi və sosial inkişaf konsepsiyasına uyğun və dünya iqtisadiyyatında gedən proseslər nəzərə alınmaqla tərtib edilib. Layihə hazırlanarkən dövlət büdcəsinin sosial və investisiya yönümlü olmasına, ölkəmizin müdafiə qüdrətinin artırılmasına, iqtisadi, enerji, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsinə xüsusi önəm verilib.

Büdcə layihəsi ətrafında müzakirələrdən sonra Baş nazir A.Rasi-zadə iclasa yekun vurub.

Qeyd edək ki, iclasda Azərbaycan Respublikasının 2013-cü il üçün dövlət büdcəsinin layihəsi haqqında sənədlər toplusunun ölkə Prezidentinə təqdim edilməsi barədə qərar qəbul olunub.

**BƏXTİYAR**

# Bakıda Ukrayna təhsil sisteminin təqdimatı keçirilib

Bakıda keçirilən VI Azərbaycan Beynəlxalq Təhsil və Karyera Sərgisi çərçivəsində "Ukraynanın təhsil sistemi"nin təqdimatı keçirilib. Təqdimatın təşkilatçıları tərəfindən "APA-Economics"ə verilən məlumata görə, tədbirdə abituriyentlər, tələbələr, yuxarı sinif şagirdləri, valideynlər və əlavə ixtisas əldə etmək istəyən gənclər iştirak ediblər.

Təqdimatda Ukraynada ali təhsil almaq üçün ali təhsil sistemi, Ukrayna diplomlarının başqa ölkələrdə tanınması, ən güclü elmi məktəblər və ali təhsil müəssisələri, təhsil sistemində innovasiyalar, Ukrayna diplomuna malik olan mütəxəssislərin əmək bazarında rəqabət qabiliyyəti, xarici tələbələrin Ukraynaya daxil olma və təhsil aldıqları müddət ərzində orada yaşama şərtləri kimi mövzulara toxunulub.

Təqdimatı Ukrayna Təhsil və Elm, Gənclər və İdman Nazirliyi Ukrayna beynəlxalq təhsilinin Ukrayna Dövlət Mərkəzinin direktoru Vasili Şik və həmin Mərkəzin Azərbaycan, Türkiyə və İranda təmsilçisi olan Aydın Novruzov keçiriblər.

Təqdimat zamanı qeyd olunub ki, Azərbaycan vətəndaşları Ukraynaya 90 gün ərzində qeydiyyatsız daxil olmaq hüququna malikdir. Abituriyent müsahibədən keçdikdən sonra ali təhsil müəssisəsi onun üçün müvəqqəti yaşayış hüququnu rəsmiləşdirir.

Tədbirdə həmçinin Ukrayna Təhsil və Elm, Gənclər və İdman Nazirliyinin "İnformasiya — imic mərkəzi" dövlət müəssisəsinin direktoru Viktoriya Sergiyenko hazırda Ukraynanın xarici tələbələri təhsil üçün fəal cəlb etməsindən danışıb və qeyd edib ki, Ukrayna vətəndaşlarının 90%-dən çoxu orta və ali təhsilə malikdir: "Ukrayna, təhsil alan xarici tələbələrin sayına görə ölkələrin ilk onluğuna daxildir. Ukrayna irqlərarası, etnik və dini münaqişələrin olmadığı tolerant bir ölkədir. Ukraynada təhsil və yaşamaq Avropaya nisbətən daha ucuzdur və bir çox ölkələrə nisbətən daha təhlükəsizdir. Mütəxəssislərin səviyyəsi isə Avropa İttifaqında və Şimali Amerikada olduğu kimidir. Xarici tələbələr dövlət diplomlarını iki dildə alırlar və bu diplomlar bütün dünyada tanınır".

Tədbirdə çıxış edən Karazin adına Xarkov Milli Universiteti Beynəlxalq Əməkdaşlıq Mərkəzinin direktoru Stanislav İqnatyev Ukraynanın təhsil sistemində innovasiyalardan danışıb və bildirib ki, Ukraynanın Boloniya sisteminə qoşulması ali təhsilin səviyyəsini yüksəltməklə yanaşı, həm də Ukrayna universitetlərinin məzunlarına Avropada işə düzəlmək imkanları açıb.

Təqdimatda həmçinin Karazin adına Xarkov Milli Universitetinin elmi-pedaqoji işlər üzrə prorektoru Zarif Nazirov və Xarkov Milli Radioelektronika Universitetinin xarici tələbələrin təhsili fakültəsinin dekanı Murad Ömərov çıxış ediblər.

Qeyd edək ki, Ukraynada təhsil haqqında ətraflı məlumatı http://see-you.in.ua/ saytında əldə etmək mümkündür.

# Dillər Universitetindəki qanun pozuntuları ilə bağlı cinayət işi başlandı

Azərbaycan Dillər Universitetində baş verən qanun pozuntuları ilə bağlı cinayət işi başlanıb. Baş Prokurorluğun mətbuat xidmətindən APA-ya verilən məlumatda bildirilir ki, Azərbaycan Dillər Universitetinin 2007-2012-ci illəri əhatə edən dövrün dövlət büdcəsindən ayrılan büdcə vəsaitlərinin və büdcədənkənar vəsaitlərin istifadə olunması vəziyyətinin yoxlanılmasına dair Hesablama Palatasından daxil olmuş materiallar Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsində araşdırılıb.

Müəyyən edilib ki, universitetin maddi məsul şəxsləri tərəfindən təftişlə əhatə olunan dövrdə müəllimlərə qanunsuz olaraq artıq saxlanılmış qruplar üzrə tədris olunmuş dərs saatlarına görə, vəzifə maaşlarına əlavələrin düzgün hesablanmamasına görə, habelə universitetin bir sıra əməkdaşlarına normadan artıq iş tarifləşdirilərək artıq əmək haqqı ödənildiyinə, habelə təhsil müəssisəsinin əməkdaşları olmayan şəxslərin adına açılmış əmək haqqı kartlarına qanunsuz olaraq pul vəsaiti köçürülməklə külli miqdarda dövlət vəsaiti mənimsəmə və israf etmə yolu ilə talanıb.

Bundan başqa, universitetdə müxtəlif tədbirlərin keçirilməsi adı altında müvafiq təsdiqedici sənədlər olmadan kassadan saxta ödəmə cədvəlləri tərtib edilməklə, həmçinin yanacaq xərclərinə görə külli miqdarda dövlət vəsaiti mənimsənilib.

Fakta görə Cinayət Məcəlləsinin 179.3.2, 308.1 və 313-cü maddələri ilə cinayət işi başlanıb.

# Azercell Facebook-dakı aktiv fəaliyyətinə görə "Socially Devoted" sertifikatına layiq görülüb

Azercell Telekom MMC-nin sosial şəbəkələrdə aktiv fəaliyyəti beynəlxalq səviyyədə tanınıb. Sosial medianın monitorinqini keçirən nüfuzlu "Socialbakers" tədqiqat mərkəzi bu fəaliyyətinə görə mobil operatoru xüsusi sertifikata layiq görüb.




ABŞ-ın "Socialbakers" şirkətinin apardığı araşdırma göstərib ki, bu ilin Aprel-İyun aylarında Azercell şirkəti rəsmi Facebook səhifəsində istifadəçilərin verdiyi sualların 89,66 faizini cavablandırıb. Bu aktivliyinə görə şirkət "Socialbakers" tərəfindən "Socially devoted" sertifikatına layiq görülüb.

Azərbaycanın mobil bazarında liderlik edən Azercell hər bir sahədə üstün olmağa, abunəçilərini son texnologiyalara əsasən müxtəlif onlayn xidmətlər təklif edir. Bir neçə ildir ki, Azərbaycanda ən populyar sosial şəbəkə olan Facebook-da Azercellin rəsmi səhifəsi fəaliyyət göstərir. Burada Azercell-in tətbiq etdiyi yeniliklər, tarif və kampaniyalar, keçirilən sosial layihələr və xidmətlər haqqında ən son xəbərləri almaq mümkündür. Şirkət sosial şəbəkə istifadəçiləri üçün müxtəlif müsabiqələr, əyləncəli viktorinalar, müxtəlif aksiyalar da təşkil edir, qaliblərə müxtəlif hədiyyələr təqdim olunur. Facebook səhifəsində həm də şirkətin keçirdiyi müxtəlif mədəni layihələrə biletlər qazanmağın mümkündür.

Onu da qeyd edək ki, regionda ilk dəfə olaraq məhz Azercell öz Facebook səhifəsində Sosial Müştəri Xidmətlərini istifadəyə verib. Bu xidmət vasitəsilə abonentlər onları maraqlanan suallara cavab tapır, problemlərini həll edir, müəyyən əməliyyatları reallaşdırırlar.

# Əli Əhmədov: "Kiminsə tənqidi əsasında birgə sənədə imza atmamışıq"

"Yeni Azərbaycan Partiyası kiminsə, hansısa beynəlxalq təşkilatın tənqidi əsasında müxalifətlə birgə sənədə imza atmayıb və belə bir qənaətə də gəlməyib". Bunu mətbuata açıqlamasında Yeni Azərbaycan Partiyası (YAP) sədrinin müavini və icra katibi, millət vəkili Əli Əhmədov Ramil Səfərovla bağlı Avropa Parlamentinə ünvanlanan müraciətin sözügedən qurumun mütəmadi şəkildə Azərbaycan iqtidarına qarşı təzyiq və tənqidlərinə cavab olaraq imzalanması barədə deyilənlərə aydınlıq gətirərkən bildirib. YAP rəsmisi qeyd edib ki, əksinə, Avroparlamentin R. Səfərovun azadlığa buraxılması ilə əlaqədar qeyri-obyektiv və ədalətsiz qərar qəbul etməsi Azərbaycan cəmiyyətini bütövlükdə ciddi narahat etdiyindən və cəmiyyətin bütövlükdə bunun əleyhinə olduğundan hakim partiya belə təşəbbüslə çıxış edib. Ə. Əhmədov hesab edir ki, bu, cəmiyyətin, siyasi partiyaların maraqlarını əks etdirir:

"YAP, dəvətimizi qəbul edən partiyaların bu addımını yüksək qiymətləndirir. Minnətdarlığımı bildirmək istəyirəm ki, dəvət etdiyimiz partiyaların əksəriyyəti bu mövqedə dayanaraq, iradəsini nümayiş etdirdilər. Bu baxımdan, bizim belə toplantı keçirməyimiz, sənəd imzalamağımız kiminsə tənqidi ilə əlaqədar deyil, sadəcə, Azərbaycan cəmiyyətinin etirazını bildirməklə bağlı olub.

Bu, cəmiyyətimizin milli məsələlər ətrafında milli birliyinin bariz təzahürüdür. Bir sıra müxalifət nümayəndələrinin imzalanmış sənədə fərqli mövqe nümayiş etdirməsinə gəlincə, bu, ümummili və partiya




marağından daha çox şəxsi mövqedir. Mən buna başqa cür qiymət vermək istəmirəm".

**KAMİL**

# Ziyafət Əsgərov: "Azərbaycan artıq 90-cı illərin Azərbaycanı deyil..."

"Bizim bir dövlət, hakimiyyət və cəmiyyət olaraq ermənilərin, o cümlədən, qanlı əməlləri ilə "məşhur" olan terror təşkilatı "ASALA"nın son terror təhdidləri ilə bağlı mövqeyimiz kifayət qədər açıqdır, aydındır". Bunu mətbuata açıqlamasında Milli Məclis (MM) sədrinin birinci müavini Ziyafət Əsgərov dilə gətirib.

Onun dediyinə görə, bir halda ki, terrorizm, ekstremizm və separatizm Ermənistanda dövlət siyasəti səviyyəsinə qaldırılıb, o zaman əslində onların növbəti terror təhdidlərində də qeyri-adi heç nə yoxdur. Birinci vitse-spiker onu da xatırladıb ki, Xocalı faciəsinin törədilməsində birbaşa əli olmuş Ermənistanın indiki prezidenti Serj Sərkisyan hələ bir xeyli müddət öncə Avropa Şurasında çıxış edərkən deyib ki, Xocalı soyqırımında məqsəd azərbaycanlıların gözünü qorxutmaq olub. "Amma demokratiyanı, insan hüquqlarını, nə bilim daha nələri təməl prinsiplər kimi qəbul edən bir təşkilat — Avropa Şurası onun çıxışına heç bir reaksiya vermədi. Nəinki bu mötəbər qurum, heç digər beynəlxalq təşkilatlar da buna heç bir reaksiya göstərmədilər. Ancaq Allaha şükürlər olsun ki, Azərbaycan bu gün o səviyyədədir ki, bu cür haqsızlıqlara qarşı artıq cavab vermək iqtidarındadır.

Azərbaycanı bu cür təhdidlər artıq qorxuda bilməz. Azərbaycan artıq ötən əsrin 90-ci illərinin əvvəllərinin Azərbaycanı deyil. Onunla təzyiq, təhdid dilində artıq danışmaq mümkün deyil. Qoy bunu düşmənlər də bilsin, elə dostlar da"- deyə,o, sözlərinə əlavə edib.



**VAHAB**

# Elmar Məmmədyarov Türkiyənin və Bolqarıstanın ölkəmizə yeni təyin olunan səfirləri ilə görüşüb



Xarici işlər naziri Elmar Məmmədyarov Türkiyənin Azərbaycanda yeni təyin olunmuş səfiri İsmayıl Alpər Coşqun ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, E.Məmmədyarov İsmayıl Alpər Coşqunu səfir təyin olunması münasibətilə təbrik edərək fəaliyyətində uğurlar arzulayıb.

Nazir dost və qardaş ölkələrimiz arasında bütün sahələrdə münasibətlərin yüksək səviyyədə olduğunu qeyd edib: "Regional enerji layihələrinin reallaşdırılmasında hər iki ölkənin mühüm rol oynayır və TANAP layihəsi ilə bağlı müqavilənin imzalanması Azərbaycan ilə Türkiyə arasında enerji sahəsindəki əməkdaşlığı daha yüksək müstəviyə çıxaracaq. Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğanın Azərbaycana sonuncu səfəri bu baxımdan yüksək əhəmiyyət daşıyır".

İsmayıl Alpər Coşqun Azərbaycanda səfir təyin olunmasından məmnun olduğunu və yüksək səviyyədə olan ikitərəfli münasibətləri daha da dərinləşdirmək istiqamətində fəaliyyət göstərəcəyini diqqətə çatdırıb. Ölkəmizin regionun çox mühüm strateji ölkəsi olduğunu diqqətə çatdıran yeni səfir qardaş Türkiyənin bütün məsələlərdə Azərbaycanın yanında olacağını bir daha təsdiqləyib.

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Bolqarıstanın ölkəmizdə yeni təyin olunmuş səfiri xanım Maya Hristova ilə də görüş keçirib. XİN-nin mətbuat xidmətindən verilən məlumata görə, nazir E.Məmmədyarov Maya Hristovanı ölkəmizdə səfir təyin olunması münasibətilə təbrik edərək yeni səfirin fəaliyyətinin iki ölkə arasındakı münasibətlərin daha da inkişafına töhfə verəcəyinə əminliyini vurğulayıb. Görüşdə Azərbaycan ilə Bolqarıstan arasında münasibətlərin mövcud vəziyyətindən məmnunluq ifadə edilib və bu əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğu bildirilib. M.Hristova Azərbaycanda səfir təyin edilməsindən məmnun olduğunu diqqətə çatdıraraq ölkəsinin Azərbaycan ilə bütün sahələrdə, xüsusilə də enerji sahəsində əməkdaşlıqda maraqlı olduğunu bildirib.

**S.MÜRVƏTQIZI**

# Strateji Araşdırmalar Mərkəzi səfirlik və media nümayəndələri üçün brifinq keçirib

Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzində (SAM) səfirlik və media nümayəndələrinin iştirakı ilə brifinq keçirilib. SAM-ın mətbuat xidmətindən qəzetimizə bildirilib ki, brifinqlərin mütəmadi olaraq keçirilməsinin məqsədi aktual hadisələrlə bağlı ekspert rəylərinin ictimaiyyətə çatdırılmasıdır.

Brifinqdə SAM-ın direktoru Fərhad Məmmədov "Ermənistanda seçkiqabağı siyasi vəziyyət" mövzusunda məruzə ilə çıxış edib: "Ermənistanın düşdüyü mürəkkəb iqtisadi vəziyyət, maliyyə çatışmazlığı, ətraf aləmdən təcrid olunması ölkə daxilində sosial gərginliyi artırmaqdadır. Ermənistanın bir sıra daxili və xarici siyasi məsələlərə münasibəti, o cümlədən NATO-nun Çikaqo, Qoşulmama Hərəkatının Tehran sammitlərində iştirakdan imtina etməsi rəsmi Yerevanın müstəqillik elementlərinin azaldığını göstərir. Azərbaycanın fəal xarici siyasəti isə Ermənistanın xarici siyasət kursunu yürütmək imkanlarını nəzərəçarpacaq dərəcədə zəiflətməkdədir. Prezident seçkiləri ərəfəsində yaranmış siyasi vəziyyət Ermənistan dövlətçiliyinin nə dərəcədə kövrək və müdafiəsiz olduğunu açıq şəkildə nümayiş etdirir".

"Azərbaycan—2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının layihəsinə dair iqtisadiyyatın təhlili və qloballaşma məsələləri şöbəsinin müdir əvəzi Vüsal Qasımlı çıxış edərək konsepsiya çərçivəsində dünyanın ilk 50 ən güclü iqtisadiyyatı sırasına yüksəlmək üçün Azərbaycanda səmərəli və rəqabətədavamlı, biliyə əsaslanan və ixracyönümlü, habelə ölkənin siyasi və strateji maraqlarını və əhalinin yüksək rifah səviyyəsini təmin edən güclü iqtisadiyyatın formalaşması prosesi sürətlənəcəyini bildirib: "Konsepsiya çərçivəsində Azərbaycanın Dünya Bankının adambaşına düşən ümumi milli gəlir təsnifatına görə "yuxarı orta gəlirli ölkələr" arasında və BMT-nin İnkişaf Proqramının insan inkişafı ilə bağlı təsnifatına əsasən "yüksək insan inkişafı" ölkələr qrupunda ön sıralara yüksəlməsi hədəflənir".

Tədbirdə xarici siyasət məsələlərinin təhlili şöbəsinin baş elmi işçisi Məsiağa Məhəmmədi İranda 2013-cü ildə keçiriləcək prezident seçkiləri ilə bağlı vəziyyət haqqında danışıb. Xarici siyasət məsələlərinin təhlili şöbəsinin aparıcı elmi işçisi Cavid Vəliyev isə Türkiyənin Ermənistan ilə sərhədlərini açmamasının səbəblərinə dair məruzə ilə çıxış edib.

**S.MÜRVƏTQIZI**

# ...Əlbəttə, vətən yaxşı!

## ONDA BƏS NƏDƏN OXUMAĞA QÜRBƏTƏ ÜZ TUTURUQ?

### UĞURLARINI XARİCDƏ QAZANAN AZƏRBAYCANLI ALİMLƏ SÖHBƏT

*Bu onun şəxsi adına qazandığı ilk mükafat deyil. Son on ildə iyirmiyə qədər elmi uğuru və elə təxminən o qədər də ixtiraya müəlliflik hüququ təsdiq olunub. Əvvəlkilər kimi, bu da bir millətə, bir ölkəyə qürur verəcək qədər mühümdür. Amma bu sətirlər işıq üzü görməsə, yenə əvvəlkilər kimi onun bu uğurundan da yaxın çevrəsindən başqa kimsə xəbər tutmayacaq. Çünki son dərəcə təvazökar və işgüzar bir insandır. Başını aşağı salıb ixtiralarıyla məşğuldur.*

*Doktor Yaşar Musayev. Bu ad artıq Nanotexnologiya üzrə dünyanın çox tanınmış isimlərindən biridir. Almaniyada yaşayır. Dünyaca məşhur Şefler (Schaeffler) firmasinda bölmə rəhbəri vəzifəsində çalışır. Eyni zamanda Erlangen-Nürnberg Universitetində dosent olaraq elmi işlərə rəhbərlik edir. Eyni zamanda Nürnberg və ətrafında yaşayan azərbaycanlıları birləşdirən XƏZƏR Təhsil və Mədəniyyət Mərkəzinin idarə heyətinin sədridir. Son aylar hamının diqqəti Bakıda və Londonda keçirilən musiqi və idman yarışlarına dikildiyi bir ərəfədə o da başqa bir yarışmada öz gücünü sınadı. Və bütün Almaniyada Nanotexnologiya sahəsində mühəndis elmləri üzrə ən güclü mütəxəssis olduğunu sübut edərək yarışmanın qalibi oldu.*

***— Yaşar bəy, mən qarşı qoymaq istəmirəm. Amma işin tərsliyindəndir sanki, indi Azərbaycan cəmiyyətinə musiqi, idman elmdən daha cəlbedici görünür. Əksinə olmalı deyilmi?***

— Çox ciddiyə almasaq, bu, normaldır. Elmdən fərqli olaraq idman da, musiqi də şou, əyləncə xarakterlidir. Bu da, hələ biznes maraqlarını nəzərə almasaq belə, onların elmdən cəlbedici olması üçün ciddi şərtdir. Həm də bu tək Azərbaycanda yox, hər yerdə belədir. Təsəvvür edin ki, iki yüzə yaxın ölkənin arasında birinci olursan. Sənin bayrağın ən yüksəyə ucalır. Unudulmaz hisslərdir...

***— Düzdür, bu gözəldir, amma təkcə hisslərlə də çox uzağa gedilməz ki. Bir qayda olaraq, onlar keçib gedəndən sonra yerini başqa hisslər tutur. Və bu hisslərin də əvvəlkilər kimi gözəl olması üçün gərəkdir ki, elmin sayəsində qazanılan nailiyyətlər də olsun.***

— Onsuz olmaz, əlbəttə. Elmin nailiyyətlərindən faydalanmadan bugünkü dünyayla ayaqlaşmaq, rəqabət saxlamaq mümkün deyil. O da var ki, ayrılıqda, elmi inkişaf etdirmək kimi bir anlayış doğru deyil. O bir-birindən asılı bir neçə şərtin nəticəsidir. Təhsildən başlayır, maliyyədən keçir və sənayenin tələbatından meydana çıxır. Bu baxımdan Azərbaycan elminin də dünyada həmişə öz layiqli yeri olub. Düzdür, müstəqillik dövründə ünvan olaraq hələ müəyyən mövqelərimizi bərpa edə bilməmişik, amma dünyada reytinqimizi saxlayan alimlərimiz çoxdur.

***— Təhsildən söz düşdü. Yeri gəlmişkən, nədən Azərbaycanda səlahiyyət sahibi olanların əksəriyyəti öz övladlarını təhsil almağa xaricə yollayırlar? "Gəzməyə qürbət ölkə" deyilib axı, oxumağa yox ki. Yəni Vətən, elə bir bayatıda deyildiyi kimi, ölməkçün yaxşı olmalıdımı? Məncə, bu çox düşünülməli olan bir məsələdir və siz də həm Azərbaycanda, həm də Almaniyada ali məktəblərdə pedaqoji fəaliyyət göstərən bir ziyalı kimi bu barədə maraqlı paralellər apara bilərsiniz.***

— Məncə, bir çoxlarının xaricə, xüsusən də məhz Almaniya təhsil sisteminə üstünlük verməsinin çox sadə səbəbləri var. İlk növbədə təhsilin keyfiyyəti şərtdir. Bu ölkədə diplom qazanan hər bir şəxs əmək bazarında özünə layiqli yer tapacağına əmindir. Eyni zamanda bu diplom dünyanın hər yerində qeyd-şərtsiz tanınır. Bu isə təhsil sisteminə olan etimadın göstəricisidir. Xüsusilə mühəndislik elmləri üzrə təhsil dünyada liderlər sırasındadır. Daimler, Siemens, Volkswagen, BMW ve s. sənaye müəssisələri olan bir ölkənin təhsil sistemi başqa cür ola da bilməzdi.

Əlbəttə, Almaniya bu yola çoxdan çıxıb. Onun kimi olmaq imkanlarımız hələ çox məhduddur. Amma güclü təhsillə və uğurlu islahatlarla nələr etməyin mümkünlüyünü Cənubi Koreya indi müvəffəqiyyətlə sınaqdan çıxarır.



**Şəkildə. Nürnberq şəhərində Əlifba bayramı. İkinci cərgədə sağdan beşinci doktor Yaşar Musayevdir.**

***— Deyəsən, həm məsafəcə, həm də məzmunca çox uzağa getdik. Əslində, mən bu söhbəti sizin uğurlarınız ətrafında qurmaq istəmişdim. Yoldanmı başlasaq? Sizi elmə, sonra da Almaniyaya gətirən yoldan. Asan olmayıb yəqin ki...***

— Bunu sürücülər daha yaxşı bilir. Asan, rahat yolda mürgüləmək, yatmaq təhlükəsi daha çox olur. Yəni, sən də əgər hamı qədər yatacaqsansa, istirahət edəcəksənsə, başqasından daha çox uğur qazanmağa hansı haqla iddia edə bilərsən ki? Bu baxımdan, normalda asan uğur olmur. Yola isə Sabirabadda şəhər orta məktəbini qızıl medalla bitirdikdən sonra çıxdım. Azərbaycan Texniki Universitetində əla qiymətlərlə oxumağım sonradan elə oradaca müəllim, kafedra müdirinin müavini işləməyimə yol açdı. Alman elmi təşkilatlarının (DAAD) təşkil etdikləri, istedadli gənc mütəxəssislərin iştirakını nəzərdə tutan bir müsabiqəni qazandım və Bavariyanın Erlangen-Nürnberq Universitetində 10 aylıq elmi təcrübə keçdim. Elə o zaman da doktoranturaya qəbul olundum.

***— Bilik, savad, zəhmət öz yerində. Sizcə, belə uzaq yola çıxanın təkbaşında yox, cibində də "bir şeylər" olmalı deyilmi? Axı bir çox talantlı insanların məhz bu səbəbdən okean sularında üzə bilmək imkanları olmayıb.***

— Çox incə bir simə toxundunuz. Yəqin ki, mənim ən böyük şansım müsabiqəni qazanmağım olub. Yoxsa, həqiqətən də, hər ayın sonu yaxınlaşanda ev kirayəsini necə ödəmək barədə düşüncələr ən mübariz planları və çox şirin arzuları asanlıqla unutdura bilir. Ona görə də, təcrübədən qayıdan kimi ilk vəzifəm ikinci iş yeri axtarmaq oldu. Doktorluq işimi tamamlamaq üçün yenidən Almaniyaya dönməli idim.

***— Azərbaycanda Universitetdə məsul vəzifə tutdunuz, ehtiyaclarınız yenəmi azalmadı? Yəni demək istəyirsiniz ki... Sizdə oxumayan tələbə heçmi yoxuydu?***

— Nə yazıq ki, varıydı. Əslində, hamıya məlumdu ki, elmlə rüşvətin birgə yürüməsi mümkün deyil. Mənzil başına hökmən onların ikisindən biri yetişir. Normalda belə bir seçim qarşısında qalmağa kimsə məcbur olmamalıdır. Olanlar da hədəflərinə, niyyətlərinə, vicdanlarına uyğun qərarlar verirlər. Mənimsə lap əvvəldən nəyi seçmək kimi bir problemim olmayıb.

***— Alim kimi, mühəndis kimi məşğul olduğunuz sahə "Nanotexnologiya" adlanır. Həm də haqqında çox eşidib az bildiklərimizdən biri sayılır.***

— "Nano" sözü dilimizdə xırda, zərrəcik mənası verir. Elm kimi yeni olsa da, o bu gün həyatımızın bütün sahələrini əhatə etməkdədir. Mənim məşğul olduğum sahədə maşın və mexanizmlərdə çox yüklənmiş hissələrin yeyilmədavamlılığının artırılması, sürtünmənin azaldılması imkanları araşdırılır. Onun əhəmiyyətini bircə rəqəmlə izah etmək mümkündür. Bu texnologiyalar, məsələn, Almaniya kimi sənayesi inkişaf eləmiş bir ölkənin büdcəsində 8 faizə qədər itkinin qarşısını almağa imkan verir. Yəni milyardlarla ölçülən vəsaitdən, səmərədən söhbət gedir. Təsadüfi deyil ki, rəyi soruşulan alman respondentlərinin 36 faizi məhz bu məsələni sənayenin inkişafı üçün ən aktual vəzifə kimi göstərmişlər. Dövlətsə onu milli məsələ səviyyəsində dəyərləndirərək haqqında xüsusi dövlət proqramı qəbul etmişdi. Eyni cür proqramlar, əlbəttə, ABŞ, Yaponiya kimi sənaye ölkələrində də qəbul edilib.

***— Bəs Şefler (Schaeffler) konkret olaraq nə iş görür? Marağımızın mərkəzində əlbəttə, yenə siz durursunuz.***

— Şefler dünyanın 70 ölkəsində müəssisələri və 75.000 işçisi olan bir nəhəngdir. Əsasən sənaye yastıqları və avtomobil hissələri istehsalı ilə məşğuldur. Dünyada markasından asılı olmayaraq hər bir avtomobil 100-dən çox Schaeffler hissəsi ilə hərəkət edir. Mənə gəldikdə isə, 2006-cı ildən etibarən bu müəssisədə baş elmi işçi vəzifəsindən başlamışam. Hazırda nanotexnologiyanın istehsalata tətbiqi məsələləriylə məşğul olan bölməyə rəhbərlik edirəm. Mənim də fəal iştirakım və təşəbbüsümlə beş il əvvəl müəssisədə Sənaye Texnikumu adlanan bir qurum yaradılıb. İyirmidən çox alim və mütəxəssis burada mənim rəhbərliyimlə elmi araşdırmalar aparır, laboratoriya sınaqları keçirirlər. Nəticələrimiz ondan ibarətdir ki, dünyaca məşhur avtomobil firmalarının marağı indi bizə yönəlib. Mənim şəxsi ixtiralarımı bir neçə tanınmış təyyarəqayırma sənayesi, "BMW", "Volkswagen", "Toyota", "Nisan", "Hunday" kimi markalar tətbiq edib və etməkdədir. Və nəhayət, bu yaxinlarda "Bosh", "Siemens", "Daimler" kimi firmaların da iştirak etdikləri müsabiqənin qalibi biz olmuşuq. Məncə, özünütərif bu qədər yetər...

***—Yetər, ancaq deməliyəm ki, bu çox az hallardan biridir ki, dinləyən də ondan ləzzət ala bilir. Bir iki il öncə, gərək ki, bir elmi konfransa getmişdiniz və o zaman indikindən daha cox həvəslə danışırdınız.***

—O zaman çəkdiyim zəhmətlərdən yana və millətim adına doğrudan bir qürur hissi yaşamışdım. Vətəndən kənarda da Vətənə gərəkli ola bilməyin nə olduğunu hiss eləmişdim. Amerikada böyük bir zalda bütün dünyadan gəlmiş alimlərin qarşısında elmi konfransı giriş məruzəsiylə mənim açmağım təklif olundu. Mən bunu böyük qürur hissi ilə yerinə yetirdim.

***—Elmi təcrübələr, laboratoriya sınaqları, çoxsaylı xarici səfərlər, kollektivə rəhbərlik, universitetdə mühazirələr... Bir də ictimai vəzifəylə yüklənmisiniz. Mənə görə bunun iki izahı ola bilər. Ya başçılıq etdiyiniz cəmiyyət çox mühüm işlərlə məşğul olmalıdır ki, buna dəysin. Ya da elə bir çoxları kimi eləcə kağız üzərində mövcud olmalıdır.***

—Gözəl müqayisədir. Onda icazə verin elə mən də müqayisə ilə cavab verim. Kiçik yaşlarında iki övladım var. Bəzən səfərlərdə oluram, günlərlə məni görmürlər. İşə lap erkən gedir, gec də gəlirəm. Yatağa bir şərtlə girirlər ki, mən gələndə anaları onları oyadacaq. Bu üzdən haqlı olaraq məndən həmişə şikayətçidilər. Bax cəmiyyətdə keçirdiyim vaxt onlara sərf edə biləcəyim vaxtdır. Amma bunu tək mən etmirəm, digər dostlarımız da təxminən bu durumdadırlar.

***— O zaman uğurlardan da söz açmaq olar ki?***

- Konkret olsaq, hər il birinci sinifə gedənlər və ali məktəblərə daxil olanlar üçün Azərbaycandakı Əlifba bayramına oxşar bir tədbir keçirməyimizi göstərmək olar. Ümumiyyətlə desək, ən böyük uğurumuz odur ki, ən azından Nürnbergdə yaşayan insanlarımız daha inanırlar ki, ətraflarında onlar üçün, balalarımız üçün təmənnasız iş görmək istəyən fədakar həmvətənlərimiz var.

**Yaqub BABALAR**

# Zahid Oruc: "Türkiyə və Azərbaycan regional proseslərdə daha aktiv iştirak etməlidir"



"Türkiyə və Azərbaycan birgə hərbi birliklər yaratmaqla regional proseslərdə daha aktiv iştirak etməlidir. Prezident İlham Əliyev qardaş ölkə ilə münasibətləri Strateji Tərəfdaşlıq səviyyəsinə çatdırmaqla təhlükəsizlik sahəsində fəaliyyətin hüquqi əsaslarını formalaşdırıb". Bu barədə millət vəkili Zahid Oruc mətbuata açıqlamasında deyib. Millət vəkilinin sözlərinə görə, Azərbaycan çox böyük gücə malik olan Türkiyənin hərbi quruculuq sistemini model kimi qəbul etməli, silahlı qüvvələrini modernləşdirməklə yeni risqlərə,çağırışlara hazır olmalıdır: "Bunun regionda doğuracağı nəticələrdən narahat olanlara Rusiya-Ermənistan ittifaqını misal göstərmək olar. Deməli, bizi bölgədəki gərginliyi artırmaqda qınaya bilməzlər. Üstəlik,Türkiyə Qafqazlarda geopolitik proseslərdə söz sahibinə çevrilib, iqtisadi dayaqlarını bərqərar edib. Bunları qorumaq lazımdır. Türkiyənin silahlı qüvvələri 800 mindən artıqdır. İlk dövr üçün briqada və ya bölük səviyyəsində Azərbaycan və Türkiyənin hərbi qüvvələrini bir araya gətirmək, təlim, tədris və xidməti eyni proqram şərtlərinə tabe etdirmək gərəkdir. Bir daha deyim ki, iki ölkə arasında 2011-ci il 19 yanvarda "strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında" bağlanmış müqavilə buna tam hüquqi əsas yaradır və Cənubi Qafqazda pozulmuş hərbi-siyasi balansı bərpa etməyə imkanlar açır".

Z.Oruc qeyd edib ki, türk generaliteti 1995-ci ildən Azərbaycanın müdafiə qabiliyyətinin artırılmasına, islahatların və NATO sistemin tətbiqinə yaxından əməli köməklik göstərir: "11 sentyabrda İlham Əliyev Rəcəb Tayyib Ərdoğan arasında keçirilən görüş və iki hökumətin birgə fəaliyyət qərarları Azərbaycan-Türkiyə hərbi birliklərini formalaşdırmağa keçid deməkdir. Bu artıq yeni mərhələ və tarixi ənənənin davamı olmaqla təhlükəsizliyimiz üçün mühüm hadisə olacaq".

Sentyabrın 17-də Rusiya ordusunun Şimali Qafqazda həyata keçirdiyi "Qafqaz-2012" hərbi təlimlərinə toxunan millət vəkili deyib ki, bu hərbi təlimlər heç şübhəsiz ki, regional situasiyaya, hərbi təhlükəsizlik şəraitinə çox ciddi təsir göstərir: "Bu təlimlər bütövlükdə Qafqazdakı mühiti dəyişir. Bu inkarolunmazdır ki, Rusiya bunu sadəcə plan tədbiri kimi reallaşdırmır və bir neçə diviziyanı, 8 mindən artıq heyəti, çoxlu təyyarə, tankları və topları buraya çıxarmaqla ən müasir avtomatları sınaqdan keçirməklə şərti deyil, dəqiq hədəflərə hesablaşmış fəaliyyət aparır. Şübhə yoxdur ki, bu Qafqaz uğrunda savaşın təlimidir və Abxaziyada, Osetiyada hərbi cəhətdən möhkəmlənəndən sonra Putin özünün prezidentliyi dövrünə Qafqazın bütövlükdə ələ keçirməsi üçün Avrasiya modeli çərçivəsində fəaliyyət planlarını hazırlamışdır".

Z.Orucun sözlərinə görə, daxildə iqtisadi müstəvidə qeyi-adi nəticələr əldə etmək mümkün deyildi və xalqın müqavimət gücünü sadəcə bəyanatlarla yatırmaq asan məsələ deyil: "Bu fonda müxalif qüvvələrin öz imkanlarını səfərbər etməsi və Putin əleyhinə daha fəal mövqe qoyması onu xarici müstəvidə daha kəskin hərəkət etməyə vadar edir. Düşünürəm ki, Qafqazlıların zəif nöqtə olması ona yaxşı bəllidir. Çünki 2008-ci ildən sonra Amerika Birləşmiş Ştatlarının Cənubi Qafqaza yönəlik siyasətində geri çəkilmə və tərəddüdlər mövcuddur. Digər bir yandan Gürcüstandakı qüvvələr nisbətinin dəyişməsi də prosesə mənfi təsir edib. Heç şübhəsiz ki, Avrasiya İttifaqını Avropa Birliyindən fərqləndirən cəhətləri saymaq olar. Avropa Birliyi dünya iqtisadi, ticarət fəaliyyətinin 20 faizini özündə daşıyır. Paralel şəkildə Avrasiya İttifaqına daxil olacaq ölkələr Avropa Birliyi ilə müqayisədə çox kiçik gücə malikdir".

Z.Oruc vurğulayıb ki, Qafqaz üzərində hərbi diktat elementlərinin qalması onun həm xarici əlaqələrinə təsir göstərəcək, həm də gələcək münasibətlər, qüvvələr düzümdə də müəyyən rol oynayacaq: "NATO Baş Katibinin Anders Foq Rasmussenin bir bəyanat verməsi və şəffaflıq çatışmır bizə açıqlamalar versinlər ki, bunun təyinatı nədir, konkret hansı hədəflərə yönəlmişdir kimi siyasi fikir dilə gətirməsi Rusiyanı öz addımlarından geri daşındırmır. 2008-ci ildəki səhnə sanki təkrar olunur. Onda da bəyanatlarla Rusiyaya qarşı durmaq istədilər. Şübhə yoxdur ki, planlar işlənib. Vladimir Putin bu məşqlərdən sonra Qafqaz ölkələrinə səfər edəcək və portfelində gələcək geostrateji planlarının real mexanizmlərini özü ilə gətirəcək. O mexanizlərin nədən ibarət olacağını indidən təyin etmək çox çətindir. Şübhə yoxdur ki, bu planlar regionun siyasi konfiqrasiyasına təsir göstərən planlardır. Onların mini SSRİ modeli olmasını da demək düzgün olmaz. Bunlar indiki gerçəklikdə çox çətindir. Çünki beynəlxalq münasibətlər sistemi ötən əsrin əvvəllərinə olan şəraitlə ilə eyni deyil. Biz bu təlimlərə məhz mühüm siyasi proqramların, planların hərbi təminatı kimi yanaşırıq".

**PƏRVANƏ**

# Cef Qoldsteyn: "Cənubi Qafqazda müharibənin canlanması Ermənistan, Azərbaycan və Gürcüstanın marağında deyil"

**Müsahibimiz Açıq Cəmiyyət Fondlarının Vaşinqton ofisinin Avropa üzrə baş siyasi analitiki Cef Qoldsteyndir.**



***—İrana hücumla bağlı məsələ xeyli vaxtdır gündəmdədir. Düşünürsünüzmü ki, hər hansı bir Qərb ölkəsi yaxın gələcəkdə İrana hücum etməyə cəhd edə bilər?***

— Hazırda heç bir Qərb ölkəsi hərbi əməliyyatın yaxınlaşması barədə açıq bəyanatla çıxış etmir. Amma aydın məsələdir ki, İran ətrafında gərginlik Cənubi Qafqaz ölkələri üçün xarici siyasət tənliyini mürəkkəbləşdirir. Bu xüsusilə də İran, ABŞ və Aİ ölkələri ilə yaxşı münasibətlər qurmağa can atan Ermənistana aiddir. Qərb və İran arasında münasibətlər pisləşdikcə, bu ikisi arasında əzilən Ermənistan üçün daha çətin olur.

***— Bu gərginlik və ya İrana hücum Cənubi Qafqaza münaqişənin həllində təsir göstərə bilər?***

— Cənubi Qafqazda müharibənin canlanması Ermənistanın, Azərbaycanın və Gürcüstanın maraqlarında deyil. Çünki müharibənin canlanmasının hansı nəticələrə gətirəcəyini hər kəs bilir. Regionun indiki durumunda müharibə ehtimalı istisnadır. Artan gərginliyin irimiqyaslı konfliktə gətirib çıxarma ehtimalı olmasına baxmayaraq, ümid edirəm ki, regional hökumətlər bundan yayınmaq üçün kifayət qədər səbr nümayiş etdirəcəklər. Biz bunu onların bir çox məsələlərlə bağlı bəyanatlarında da görürük.

***— Qarabağ münaqişəsində Rusiyanın vasitəçiliyi barədə nə deyə bilərsiniz?***

— Putinin nəyi düşündüyünü deyə bilmirəm, lakin iki dəfə prezident olduğu müddətdə o, tez-tez Ermənistan və Azərbaycan prezidentləri ilə görüşürdü. Yəni Rusiyanın təşəbbüsü ilə münaqişə tərəflərinin çoxsaylı görüşləri olub. Bu görüşlərin yekunu barədə nəsə deyə bilmərəm, amma ehtimal edirəm ki, prezident Putin bu fəaliyyətini davam etdirəcək.

***— Qarşıdan gələn prezident seçkilərindən sonra Amerikanın bizim regionla bağlı diplomatiyasında hər hansısa bir dəyişikliyin olacağını düşünürsünüz? Gələcək illərdə Amerikanın enerji, həmçinin münaqişə və gərginliklə zəngin regiondakı siyasətində prioritetlər nədən ibarət olacaq?***

— Romney düşərgəsində Rusiyaya qarşı ABŞ-ın Gürcüstanla bağlı siyasətinə təsir edə biləcək mənfi rəyin olmasına baxmayaraq, elə də böyük dəyişikliyin olacağını düşünmürəm. Lakin seçkilərdən əlavə düşünürəm ki, 2014-cü ildə hərbi əməliyyatların Əfqanıstan milli qüvvələrinə həvalə edilməsi ABŞ-ın Qafqazda və Mərkəzi Asiyada siyasətinə əhəmiyyətli dərəcədə təsir edəcək, çünki bu zaman şəxsi heyətin və avadanlığın bu ölkənin tranzitinə o qədər də ehtiyac qalmayacaq.

**PƏRVANƏ**

## Hava necə olacaq?

Bakı və Abşeron yarımadasında sentyabrın 25-də hava şəraitinin dəyişkən buludlu olacağı, günün birinci yarısında arabir tutulacağı, yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı ehtimalı var. Cənub-şərq küləyi əsəcək. Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Departamentindən APA-ya verilən məlumata görə, havanın temperaturu gecə 17-20, gündüz 23-28 dərəcə isti olacağı gözlənilir.

Azərbaycanın rayonlarında sentyabrın 25-də hava şəraitinin əsasən yağmursuz keçəcəyi, lakin gecə və səhər Lənkəran-Astara zonasında qısamüddətli az yağış yağacağı gözlənilir. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 15-20, gündüz 27-32, dağlarda gecə 7-12, gündüz 18-23 dərəcə isti təşkil edəcək.

Sentyabrın 25-dən 27-dək Abşeron yarımadasında hava şəraiti meteohəssas insanlar üçün əlverişli olacaq.

## Dindarlar Bakıda Fransa səfirliyi qarşısında etiraz aksiyası keçirdi

Dünən bir qrup dindar Fransanın Azərbaycandakı səfirliyinin binası qarşısında aksiya keçirib. APA-nın xəbərinə görə, aksiyada son vaxtlar Fransada İslam dininə yönələn təhqirlər, müsəlmanlara qarşı diskriminasiya siyasəti, o cümlədən Fransada nəşr olunan "Charlie Hebdo" jurnalında Məhəmməd Peyğəmbərin (s) karikaturasının dərcinə etiraz bildirilib.

Polis aksiya iştirakçılarının səfirliyin binasına yaxınlaşmasına imkan verməyib, hüquq-mühafizə orqanlarının əməkdaşları ilə aksiya iştirakçıları arasında qarşıdurma yaranıb.

Aksiyanın qarşısının alınmasına Bakı şəhər Baş Polis İdarəsinin rəis müavini Səlhab Məmmədov rəhbərlik edib. Aksiya iştirakçılarından bir neçəsi saxlanıb. Aksiyada "La ilahə illəllah", "Canımız sənə fəda ya Rəsulallah", "Məhv olsun Fransa", "Allahu Əkbər" şüarları səsləndirilib.

## Pakistandakı səfirliyimizin təhlükəsizliyi gücləndiriləcək

Azərbaycanın Pakistandakı səfirliyində təhlükəsizlik tədbirlərinin gücləndirilməsi məqsədi ilə əlavə vəsait ayrılıb. Bu barədə APA-ya Nazirlər Kabinetindən məlumat verilib.

Nazirlər Kabinetinin qəbul etdiyi qərara əsasən, bu məqsədlə, Azərbaycanın 2012-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Ehtiyat Fondundan Xarici İşlər Nazirliyinə 257 min 76 ABŞ dollarının manat ekvivalenti məbləğində vəsait ayrılıb.

# Ukraynada keçirilən regional seminarda ölkəmizi Baş Prokurorluq təmsil edib

Ukraynanın Odessa şəhərində BMT-nin Narkotiklər və Cinayətkarlığa qarşı Mübarizə üzrə Ofisi və Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilatın (GUAM) birgə təşkilatçılığı ilə "Milli səviyyədə çirkli pulların yuyulmasının qarşısının alınması və əks tədbirlərin görülməsi üzrə qurumlararası əməkdaşlıq mexanizmlərinin təkmilləşdirilməsi" mövzusunda regional seminar keçirilib. Baş Prokurorluğun mətbuat xidmətindən qəzetimizə verilən məlumata görə, seminarın işinə GUAM-a üzv dövlətlərin (Gürcüstan, Ukrayna, Azərbaycan və Moldova) nümayəndə heyətləri ilə yanaşı, Böyük Britaniya, İtaliya, Macarıstan, Litva və digər ölkələri təmsil edən nümayəndələr də qatılıb. Tədbirdə Azərbaycan Respublikası baş prokurorunun xüsusi tapşırıqlar üzrə köməkçisi Orxan İsayev çıxış edərək cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin leqallaşdırılmasına qarşı mübarizə sahəsində Azərbaycan Respublikasında həyata keçirilmiş qanunvericilik və institusional tədbirlər, o cümlədən qeyd olunan kateqoriyadan olan cinayət işləri üzrə aparılan araşdırmaların xüsusiyyətləri barədə, həmçinin cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması ilə əlaqədar Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsində istintaq olunmuş cinayət işləri barədə ətraflı məlumat verib. Tədbirdə iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

**S.MÜRVƏTQIZI**

# QHT-media təmaslarına həsr olunmuş treninq keçirildi

Söz Azadlığını Müdafiə Fondunun (SAMF) təşkilatçılığı ilə Qeyri-hökumət Təşkilatları- KİV münasibətlərinə həsr olunmuş treninq keçirilib. Ölkədə müxtəlif istiqamətlər üzrə fəaliyyət göstərən səkkiz qeyri-hökumət təşkilatının gənc üzvlərinin iştirakı ilə baş tutan tədbirdə əsasən bu institutların media qurumları ilə iş birliyi barədə müzakirələr aparılıb.

Vətəndaş cəmiyyətləri-media münasibətlərinə yeni baxış mövzusunda çıxış edən SAMF-ın icraçı direktoru Vüqar Tofiqli QHT-lərin fəaliyyətinin ictimaiyyətə çatdırılması üçün hər bir təşkilatda hazırlanan press-relizlərin önəmi barədə məlumat verdikdən sonra onların hazırlanma qaydası barədə treninq iştirakçılarını təfsilatı ilə məlumatlandırıb, press-relizlərin lakonik, lakin əhatəli yazılmalı olduğunun vacibliyini bildirib.

"Qarabağın səsi" qəzetinin redaktoru Qədir Nəsirov Ermənistan-Azərbaycan-Dağlıq Qarabağ münaqişəsi mövzusunun QHT-lərlə əlaqəli işıqlandırılması mövzusunda fikirlərini treninq iştirakçıları ilə bölüşüb, onları Qarabağ həqiqətlərinin işıqlandırılmasında passiv mövqedən uzaqlaşaraq fəal əməkdaşlığa dəvət edib.

QHT-media əlaqələrində əsas hədəflər mövzusu ilə müzakirələrə qatılan SAMF-ın layihə koordinatoru Nəzirməmməd Zöhrablı bu hədəflərin xüsusilə ölkədə yaradılmaqda olan vətəndaş cəmiyyəti barədə bilgiləri Azərbaycan və dünya ictimaiyyətinə çatdırmaqdan, media ilə intensiv əlaqələrdən QHT-lərin daha çox dividend əldə etməsindən, QHT-lərin bu yolla ölkədə aparılan islahatlara daha çox nüfuz edə bilməsindən ibarət olduğunu bildirib.

Treninqin sonunda QHT təmsilçilərinə ev tapşırığı verilib. Qərara alınıb ki, analoji treninqlər ayda bir dəfə olmaqla SAMF-ın ofisində davam etdirilsin.

**BƏXTİYAR**

Yaddaşımın küncündən...

**Şakir YAQUBOV**



# Həqiqətən də bu, bir daha təkrar olunmamalıdır!..

...Var da belə bir məsəlimiz: Zalım oğlu, göndərir məni gedər-gəlməzə, adımı da qoyur yarıtmaz.

Belədə bəlkə dözülməlidir bu məsəl: necə deyərlər, nədirsə odur. Ancaq çox vaxt bu məsəlin ifadə etdiyi vəziyyətin çıxılmazlığı adamı dəli eləyir: heç yana nə səsin çatır, nə ünün yetir.

Bu yaşımda çıxılmaz vəziyyətlərə az düşməmişəm, amma ümumən 1990-cı ilin 20 yanvarından sonrakı ilk günlərin və həftələrin çıxılmazlığını heç nə ilə müqayisə eləyə bilmirəm. Bu, bəlkə də onunla bağlıdır ki, "Dövlətin, hökumətin öz vətəndaşına güllə atacağı ağlabatan deyil" düşüncəsi bizim "filoloji təfəkkürümüz"də (Aydın Məmmədov) dominant idi. Hərçənd ən elementar məntiqə görə, əgər üç yaşlı uşaq dolu tüfəngi götürüb atasına tuşlayarsa, şübhəsiz ki, alacağı, ən yaxşı halda, yağlı bir sillə olacaq və onda da atanı kimsə qınamayacaq.

Biz hədsiz dərəcədə humanizm eyforiyasına uymuşduq və buna görə aldığımız tərs sillənin təsiri altında uzun müddət sızlayıb-sıtqayıb bir yana çıxa bilmədik...

✦✦✦

"Kommunist"in növbəti — 11 fevral 1990-cı il tarixli nömrəsini hazırlayırdıq. Axşamüstü redaksiyadakı işimi tamamlayıb "Kommunist" nəşriyyatına yollanmaq ərəfəsində redaktor əvəzi Rəfail Nağıyev otağıma gəldi (bu onun köhnə şakəri idi — konkret tapşırığı olan işçiləri yanına çağırmaz, özü onların yanına gedib işin gedişini öyrənərdi); nömrə ilə bağlı hansısa problemin olub-olmadığını soruşdu, hər şeyin qaydasında olduğunu biləndə:

— Axşama özüm də gələrəm mətbəəyə, — dedi, — hələ bəlkə vacib bir material da gətirdim...

Cümləsinin ikinci hissəsi diqqətimi çəkdi:

— Nə materialdı elə?

Heç vaxt sərt ifadə verə bilmədiyi sifətində, sadəcə, həmin günlər üçün hamıya xas olan bir ciddilik vardı:

— Mitət Teymurovicin yanına gedirəm, deyirəm bəlkə ondan təzə bir şey qopara bildim...

"Mitət Teymuroviç" deyəndə həmin anda o, akademik Midhət Teymur oğlu Abbasovu nəzərdə tuturdu. Bu məqamda Midhət Abbasov SSRİ xalq deputatı olaraq 1990-cı il 20 yanvar hadisələrini araşdıran deputat-istintaq komissiyasının sədriydi, SSRİ Ali Sovetinin növbəti sessiyasında iştirak etmək və başçılıq elədiyi komissiyanın rəsmi yekun rəyi ilə ölkə (SSRİ) deputatlarını tanış etmək üçün gərək ki, elə bu axşam Moskvaya uçmalıydı. Bilirdim ki, Rəfail müəllimlə uzun illərin dostudurlar, bir-birilərinə ərk edirlər və ilin-günün istənilən vaxtında qeyri-formal şəraitdə görüşləri baş tutur. Budəfəki görüşün təşəbbüsçüsünün kim olduğunu bilməsəm də, güman ki, bu, qarşılıqlı bir maraqdan doğmuşdu.

...Təxminən axşam saat yeddi üçün Rəfail müəllim birbaşa mətbəəyə gəldi, əlində də güman elədiyim vacib material yox ey, vacib materiallar: "Mitət Teymuroviç"in imzaladığı 1990-cı il 20 yanvar hadisələrini araşdıran deputat-istintaq komissiyasının yekun rəyi və həmin vaxt uzaqdan-uzağa politoloq kimi tanıdığım Eldar Namazovun "Bu, təkrar olunmamalıdır!" adlı yazısı.

Buradaca qəzetçiliklə bağlı bir məqamı qeyd etməliyəm: indiki, hətta tam məsuliyyətsizliyi ehtiva edən diffamasiya haqqında qanunun qəbul edilməsi üçün yaxa yırtılan zamandan, Əlinin papağının heç bir vicdan əzabı çəkmədən rahatlıqla Vəlinin başına qoyulduğu dövrdən fərqli olaraq bizim vaxtımızda, xüsusən də respublikanın rəsmən 1 nömrəli qəzetində geniş ictimai-siyasi məna yükünə malik hansısa hadisə barədə sərbəstcəsinə nəsə yazıb çap etdirmək, sadəcə, mümkün deyildi — bunun girovu partiya üzvlük biletin və tutduğun vəzifə idi: birdəfəlik hər ikisindən məhrum olub "bomj"a çevrilə bilərdin...

Başqa sözlə, ən xırda bir mətn də müvafiq instansiyalarda razılaşdırılmaqla, rəsmi informasiya agentliyi vasitəsilə redaksiyaya daxil olmalı idi və sən də qəzet(çi) olaraq aldığın mətnin nöqtə-vergülünə əl vurmadan onu bəzən hətta qeyd olunan səhifədə verməli idin.

Bu, adi günlərin iş qaydası idi, indi isə üstəlik, respublikada fövqəladə vəziyyət hökm sürürdü və həyat, fəaliyyət qaydalarını da "onlar" — hərbçilər müəyyən edirdilər, "onlar" isə, həmin dövrdə Nəsimi rayonunun hərbi komendantı, məşhur avantürist sovet-rus generalı Aleksandr Lebedin mənə birbaşa dediyi kimi, "naplevali na naşu SeKa, na naşu qazetu i na nas v selom".

Bax, belə bir vəziyyətdə Rəfail müəllim yoldaşyana münasibətindən istifadə edərək çap olunmaq üçün Midhət Abbasovdan deputat-istintaq qrupunun rəyinin bir nüsxəsini və onun bir növ şərhi olan Eldar Namazovun məqaləsini əldə etmişdi.

Deputat-istintaq qrupunun rəyi makina yazısı idi, onu problemsiz linotipçiyə, yığılmağa verdik, məqaləni isə Rəfail müəllim oturub vərəq-vərəq tərcümə elədi (yazı-pozu işində "russkoyazıçnı" olan müəllif, şübhəsiz ki, məqaləni rus dilində yazmışdı), mətbəənin sayılıb-seçilən linotipçilərindən olan Niftalı, adətən, yığılmaq üçün əlyazma halında bir cümlə də qəbul etmədiyi halda tərcüməni əlyazmasından yığdı, kifayət qədər əziyyət bahasına olsa da, hər iki materialı səhifələrdə — deputat-istintaq komissiyasının rəyini rəsmi sənəd kimi 1-ci səhifədə, Eldar Namazovun məqaləsini isə hərbi senzorun gözünə girməməsi üçün içəri, 2-ci səhifədə yerləşdirdik.

Rəfail müəllimin tövsiyə-göstərişi ilə "Bakinski raboçi" qəzetinin redaktor əvəzi İbrahim Şükürov da, tərcümə prosesi istisna olunmaqla, eyni işləri gördü və qəzet səhifələri çapa icazə alınması üçün nəşriyyat direktorunun iş otağında lövbər salmış hərbi senzor general Aleksandrova təqdim olundu.

Və burada ilişdik. Senzor nəinki materialların çapına icazə vermədi, üstəlik, bu işin təşkilatçısı, "təxribatçı" Rəfail Nağıyevə daha 30 sutka həbs elan elədi (birinci dəfə o, məşhur sovet kino rejissoru və aktyoru Stanislav Qovoruxinin 20 yanvar qırğını barədə "Moskovskiye novosti" qəzetində dərc olunmuş yazısını "Kommunist"də Azərbaycan dilində çap etdirmək istəməsinə görə 30 sutka almışdı).

Deputat-istintaq qrupunun rəyi qəzetin sonrakı nömrələrindən birində, yolunmuş, yəni hərbi senzorun qayçısından çıxmış halda çap olundu, Eldar Namazovun məqaləsi isə 1992-ci ilin yanvarında çıxmış "Mən şahidəm ki..." kitabımda verilib. Operativ sənəd kimi yox, tarix üçün:

"Yanvarın 20-də Bakıda baş vermiş faciəli hadisələr haqqında nə vaxtsa kitablar, xatirələr yazılacaq. İndi, bu vəziyyətdən (adam heç bilmir onu necə adlandırsın — ruhi sarsıntımı, süstlükmü, yaxud qeyzmi) yavaş-yavaş yenicə çıxmağa başladığımız bir vaxtda isə şəhərimizdə nə baş verdiyi barədə soyuqqanlıqla təmkinli mülahizələr yürütməyə hətta xırdaca cəhd göstərmək belə mümkün deyil. Bu faciə təkcə Bakıda və başqa şəhərlərdə, böyük qəsəbələrdə və kiçik dağ kəndlərində yaşayan milyonlarla adamın bu yaxınlarda Şəhidlər Xiyabanına, son mənzilə yola saldığı adamların başına gəlməmişdir. Bu, təkcə klinikalarda həkimlərin gecə-gündüz çalışıb həyata qaytarmaq istədikləri adamların başına gəlməmişdir. Yanvarın 20-də Bakıda baş verən faciə bütün ölkənin, bizim inamımızın, ümidlərimizin və gələcəyimizin başına gəlmişdir. Bu, azərbaycanlıların və rusların, estonların və gürcülərin qəzavü-qədəridir...".

Bu tipli publisistik girişdən sonra müəllif beş mühüm sual qoyur və SSRİ rəhbərliyindən onları cavablandırmağı Azərbaycan xalqı adından tələb edirdi.

Kifayət qədər irihəcmli yazı bu kəlmələrlə bitirdi: "Məncə, təcili surətdə SSRİ Ali Sovetinin fövqəladə sessiyasını çağırmaq... onun gündəliyinə Bakı faciəsi haqqında məsələ daxil etmək lazımdır. Alma-Atada (o vaxt bu şəhər belə adlanırdı — Ş.Y.), Tbilisidə, indi isə daha geniş miqyasda Bakıda baş vermiş hadisələr bir də heç yerdə təkrar olunmamalıdır".

Həqiqətən də bu, bir daha təkrar olunmamalıdır!..

**Fevral 1990 — sentyabr 2012**

"Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi" istiqaməti üzrə

# Açıq cəmiyyət və mətbuat



Tofiq YUSİFOV

XX əsrin sonu, XXI əsrin əvvəllərində Azərbaycanda müstəqillik, azadlıq, demokratiya dalğası ölkənin inkişafı və Qərb dəyərlərinə yanaşması ilə bərabər, KİV-in də çox sürətli tərəqqisi və cəmiyyətdə mövqelərinin möhkəmlənməsi ilə müşayiət olundu. Bu iqtisadi-siyasi, sosial—mədəni, intellektual tərəqqi isə, öz növbəsində, cəmiyyətin inkişafının yeni mərhələyə keçidi ilə nəticələndi. Ölkədə demokratiya, plüralizm, fikir və söz azadlığının əsas daşıyıcılarından biri olan media insanların cəmiyyətin idarə olunmasında iştirakını labüdləşdirdi, onları ölkənin taleyüklü məsələlərində daha məsuliyyətli və fəal olmağa səfərbər etdi. İnsanlarda ölkə, Vətən, xalq üçün, onun taleyi üçün bir sahiblik, bir məsuliyyət hissi yaranmağa başladı. Bu yeni dalğa ölkədə prinsip və keyfiyyətcə yeni bir prosesin — açıq cəmiyyət quruculuğunun ilk cücərtiləri, simptomları idi.

Kütləvi informasiya vasitələri — qəzetlər, jurnallar, teleradio proqramları, sənədli kinofilmlər və kütləvi informasiyanın müntəzəm formada yayıldığı digər vasitələr — cəmiyyətin inkişafına ciddi təsir göstərən, onun vəziyyətini və mahiyyətini müəyyənləşdirən siyasi sistemin tərkib hissəsidir. Onların fəaliyyəti cəmiyyətdə baş verən reallıqlara münasibət formalaşdırır, ictimai-siyasi təsir göstərir. KİV təkcə informasiya ilə kifayətlənmir, o həm də yeniliklərə şərh verir, ayrı-ayrı ideyaları, təlimləri, siyasi proqramları təbliğ və təşviq edir. KİV insanlarda ictimai fikirlər, inam və sosial fəallıq formalaşdırmaqla, onları müəyyən fəaliyyətə istiqamətləndirir.

İnformasiyaların əsas mənbəyi, daşıyıcısı "dördüncü hakimiyyət" adlanan, çağdaş dünyamızda özündən əvvəlki hakimiyyət qolları ilə, demək olar, eyni səviyyədə dayanan və onlara sağlam opponentlik edən kütləvi informasiya vasitələri, qısa deyilsə, mediadır. Cəmiyyətin inkişafında uzaq keçmişdən mətbuat öz sözünü demiş, müasir dövrdə isə KİV ictimai həyatın ayrılmaz mexanizminə çevrilmişdir.

XX əsrin ortalarından "informasiyalı cəmiyyət" anlayışının meydana çıxması da bu proseslərlə bağlıdır və məhz informasiyalı cəmiyyət tədricən formalaşaraq müasir sivilizasiyada özünə vətəndaşlıq hüququ qazanmışdır. Bu inkişaf isə, həm də kütləvi informasiya vasitələri, bütövlükdə jurnalistika ilə bağlıdır. Belə bir cəmiyyətdə vətəndaşların informasiya almaq hüququ cəmiyyətin və dövlətin demokratik göstəricisi kimi qəbul olunur.

Demokratik, hüquqi cəmiyyətdə hər bir vətəndaş dünyada və ölkədə baş verən proseslər barədə məlumatlanmaq üçün hüquqi cəhətdən zəmanət verilən azadlıqlara malikdir. Aşkarlıq və demokratiya kütləvi informasiya vasitələri olmadan nəinki reallaşdırıla, heç təsəvvür belə edilə bilməz. Ona görə də, "bəşəriyyət demokratiyanın yolunu açıq, informasiyalı cəmiyyətdən almışdır" və "Demokratik əsaslarla fəaliyyət göstərən ölkədə jurnalistikanın inkişafı insanın informasiya hüququnu təmin edən açıq cəmiyyətə aparır" söyləyən mətbuat nəzəriyyəçiləri tamamilə haqlıdırlar.

Açıq cəmiyyət elə bir ictimai mühitdir və belə bir fakta əsaslanır ki, heç kim həqiqət üzərində mütləq monopoliyaya malik deyildir, müxtəlif adamların müxtəlif nəzər- nöqtələri ola bilər, ayrı-ayrı qurumlar insan hüquqlarını mütləq müdafiə etməlidirlər, bütün insanlara sərbəst və əmin-amanlıq şəraitində yaşamaq imkanı verilməlidir. Ümumilikdə, açıq cəmiyyət qanunun aliliyini, demokratik yolla seçilmiş hökumətin varlığını, müxtəlif təbəqələrin olmasını qəbul edən, ictimai azlıqlara və onların hüquqlarına hörmətlə yanaşan bir cəmiyyət kimi xarakterizə olunur.

KİV-in bu dövrdə konstruktiv rolu, əsasən, açıq cəmiyyət azadlıqlarının əldə edilməsindən və saxlanılmasından ibarətdir. İnformasiya plüralizmi, informasiya məkanının tam prinsipial açıqlığı, KİV-in dövlət təsirinin hüdüdlarından kənarda da geniş yayılması açıq cəmiyyətin formalaşmasının əsas və aparıcı şərtidir. Bu cəmiyyətin prinsiplərinə görə, demokratik hökumət onu tənqid edənləri, müəyyən əks mülahizə yürüdənləri nəzarətdə saxlamamalı və məzəmmət etməməlidir. Demokratiya yeni ideya, məlumat, fikir və düşüncələri qeyri-adi, qeyri- məhdud axından qidalanan vətəndaşların enerjisi hesabına çiçəklənir. Vətəndaşları hökumətin təzyiqindən qorumaq üçün hökumətin təklifləri qanunverici orqanda qanun şəklinə salınmalı, KİV vasitəsi ilə ictimaiyyətin müzakirəsinə verilməli, ictimai nəzarət təmin edilməlidir.

Neçə onilliklər öncə açıq cəmiyyət ideyası mücərrəd fikir, fantastik mülahizə təsiri bağışlaya bilərdi. Lakin qloballaşma dövrünün coşqun proseslərini, son 40- 50 ildə dünyada baş verən əhəmiyyətli dəyişiklikləri nəzərə alsaq, açıq cəmiyyətin qanunlarının çox qısa zaman kəsiyində ictimai- siyasi münasibətlərdə və bütövlükdə cəmiyyətdə aparıcı vasitəyə çevriləcəyi şübhə doğurmamalıdır. İnformasiya—-kommunikasiya texnologiyalarının günbəgün deyil, saatbasaat inkişaf etməsi, dünyada demokratik proseslərin dönməz xarakter alması, sivilizasiyanın modernləşməyə meyli bütün bəşəriyyətin üzünün tərəqqiyə və açıq cəmiyyətə çevrilməsindən xəbər verir. Məhz bu səbəbdən də "Azərbaycanda açıq cəmiyyətin formalaşmasında mətbuatın rolu (1991-2004-cü illər)" mövzusu ciddi aktuallıq kəsb edir.

Araşdırmanın məqsədi Azərbaycan müstəqillik qazandıqdan sonra ölkədə baş verən mütərəqqi meylləri, demokratik prosesləri, vətəndaş və açıq cəmiyyət quruculuğu səylərinin tarixini, mətbuatın bu inkişafa pozitiv təsiri və ideoloji təminatı məsələlərini öyrənməkdir. Dünyada açıq cəmiyyət quruculuğunun əsas prinsiplərinin bərqərar olduğu ölkələrin keçdiyi inkişaf tarixinin Azərbaycan reallıqları ilə müqayisəli araşdırılması, ölkəmizin Qərb dəyərlərinə inteqrasiyası problemləri, mənəvi inkişaf, insan hüquq və azadlıqlarının cəmiyyətimizdə bərqərar olması məsələləri tədqiqatın prioritet istiqamətini təşkil edir.

Qloballaşma şəraitində Azərbaycanın açıq cəmiyyət quruculuğuna qədəm qoyması faktının strateji nəticələrini proqnozlaşdırmaq, mətbuatın ölkə üçün bu taleyüklü inkişaf mərhələsində maarifçilik, təşkilatçılıq və aşkarlıq , şəffaflıq vasitəsi kimi rolunun fövqəladə şəkildə artması müstəvisində fəaliyyət prinsiplərini araşdırmaq başlıca məqsəd kimi qarşıya qoyulmuşdur.

Burada əsas tədqiqat obyekti 1991-2004-cü illəri əhatə edən müasir Azərbaycan mətbuatıdır. Əsasən, "Azərbaycan", "525-ci qəzet", "Zerkalo"("Ayna"), "Yeni Azərbaycan", "Yeni Müsavat" qəzetlərinin materialları, həmçinin digər elmi, bədii və publisistik nümunələr üzrə sözügedən zaman kəsiyində ölkədə yeni cəmiyyət quruculuğu, demokratik proseslər, müstəqillik illərinin mürəkkəb keçid mərhələsində ictimai şüurun, dövlətçiliyin qorunması və milli ideologiyanın formalaşması səylərinə mətbuatın sanballı köməyi və təsiri konkret faktlarla göstərilir.

Burada açıq cəmiyyət quruculuğu məsələlərinin son dövrdə istər dünyada, istərsə də Azərbaycanda kifayət qədər geniş maraq kəsb etməsi, onun mahiyyət və əsas prinsipləri ilə bağlı polemikaların daim ictimai həyatda, siyasi və sosial kuluarlarda yer alması, ölkədə yeni cəmiyyətin təşəkkülünün günün reallığına çevrilməsi faktı əsas götürülərək ictimai həyatın ruporu olan mətbuatın bu problemlərə yanaşma formaları ətraflı şəkildə tədqiq olunmuşdur.

Araşdırmada həm açıq cəmiyyətin tələbləri nöqteyi-nəzərindən daha sivil və demokratik ölkələrin təcrübəsi, həm də , eyni zamanda, bu təcrübəni gündəlik fəaliyyətlərində tətbiq etmiş və maraqlı, legitim nəticələr qazanmış KİV-in publisistik materialları tədqiqat obyekti olmuşdur.

Müəllifin qələmə aldığı mövzunun nəzəri və metodoloji əsasında açıq cəmiyyətin formalaşması prosesində misilsiz xidmətləri olan, demokratiyanın ayrılmaz atributuna çevrilən, "dördüncü hakimiyyət" kimi dəyərləndirilən mətbuatın milli ənənələri, müasir fəaliyyət prinsipləri, dünya təcrübəsinin tarixi və müasir meyllərinin analoji aspektləri ilə müqayisəli şəkildə təhlili dayanır.

Nəzəri konsepsiyalar və siyasi, fəlsəfi, publisistik aspektlərə tarixilik baxımından yanaşma mövzunun araşdırma üzrə məqsəd və nəticələrinin əsas prinsiplərini təşkil edir. Bu zaman bir sıra maraqlı, orijinal nəzəri fikirlər irəli sürülür və əsaslandırılır.

Araşdırmada göstərilir ki, açıq cəmiyyət quruculuğu konsepsiyası və bu prosesin reallaşmasında mətbuatın rolu tarixi ciddi araşdırma mövzusu kimi ötən əsrdən tədqiq edilməyə başlamışdır. "Açıq cəmiyyət" anlayışı ilk dəfə olaraq fransız filosofu Anri Berqsonun (1859 — 1941) 1932- ci ildə yazmış olduğu "Mənəviyyat və dinin iki mənbəyi" kitabında özünə geniş yer almışdır. A.Berqson sözügedən kitabda bir-birinə tam əks mövqedə dayanan "açıq cəmiyyət " və "qapalı cəmiyyət" fəlsəfi kateqoriyalarını geniş elmi —siyasi leksikona daxil etmişdir.

Lakin A. Berqsonun sözügedən əsərində "açıq cəmiyyət", "qapalı cəmiyyət" anlayışları sırf dini — fəlsəfi məna yükünə malikdir və ictimai həyatın digər sahələrini əhatə etmir.

Bu anlayışlar yalnız Böyük Britaniya alimi Karl Popperin 1945-ci ildə işıq üzü görmüş "Açıq cəmiyyət və onun düşmənləri" kitabından sonra geniş şöhrət qazanmışdır. Bu ikicildlik kitabda K.Popper açıq cəmiyyət ideyasını özünün elmi səmərəlilik fəlsəfəsi ilə birləşdirərək mükəmməl bir elmi — siyasi istiqamətin əsasını qoymuş oldu.

Məhz bu aspektdən açıq cəmiyyət ideyası media tərəfindən ötən əsrin ortalarından sonra daha intensiv şəkildə öyrənilməyə başlandı. Həmin dövrdə-80-ci illərin sonu — 90-cı illərin əvvəllərində Şərqi Avropada, eləcə də keçmiş SSRİ məkanında baş verən demokratik proseslər və milli — azadlıq hərəkatları nəticəsində açıq cəmiyyət quruculuğu prosesi ən aktual və strateji cəhətdən ən cəlbedici istiqamətə çevrildi. Bu dövrdə açıq cəmiyyətin mahiyyəti, perspektivləri və problemləri ilə bağlı istər Qərb, istər rus, istərsə də Azərbaycan məkanında kifayət qədər ciddi araşdırmalara başlandı. Hazırda bu publisistik, elmi və fəlsəfi araşdırmalar ABŞ, Böyük Britaniya, Rusiya, Norveç, Almaniya, Fransa kimi ölkələrin sahə elmi mərkəzlərinin tədqiqatlarının əsas profilini təşkil edir.

Azərbaycanda açıq cəmiyyətin formalaşması prosesində milli kütləvi informasiya vasitələrinin rolunun araşdırılması ölkəmizdə sözügedən sahədə ilk cəhddir. Çağdaş Azərbaycan jurnalistikası tarixində demokratik inkişafın, vətəndaş cəmiyyətinin ən yüksək fazası olan açıq cəmiyyətin formalaşmasına mətbuatın təsiri mövzusu ilə bağlı indiyə kimi fundamental, kompleks araşdırmaya rast gəlmək qeyri-mümkündür. Bu sahəyə yaxın mövzularda müəyyən mülahizələr səslənsə, yazılar dərc olunsa da, həmin materiallarda mövzunun bütövlükdə elmi-publisistik həlli deyil, ayrı-ayrı aspektləri barədə fikirlər irəli sürülmüşdür.

Bu araşdırmada mətbuatın ölkədə gedən quruculuq proseslərinə təsiri, cəmiyyətin bu quruculuq səylərini dərindən qavraması və dəstəkləməsi, cəmiyyətlə dövlət arasında münasibətlərin sivil qaydada tənzimlənməsində onun yeri və rolu elmi və praktik şəkildə əsaslandırılmışdır.

**(Ardı var)**




**Səhifədəki material Azərbaycan Respublikasının Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun layihəsi üzrə çap olunub**

# İlham Əsgərov – səsin dalğası

Səsiylə — sədasıyla Azərbaycanımın dünənindən bu gününə körpü salan, boy — buxununda Dəmbəlo dağının ucalığını, səsində Viləşçayın coşqunluğunu, Şır-şır bulağın həzinliyini yaşadan sənətkar barədə duyğularımı ipə-sapa düzüb, nəsə babat bir ürək sözü yazmaq çoxdankı arzumdur. Amma yazdıqlarıma baxanda İlhamın mavi ekrandan — istedadlı rejissor Elçin Cahangirlinin çəkdiyi "Susmuş vicdan" teleserialında canlandırdığı general obrazı sanki mənə səslənir: "Yox. qaraş, belə olmaz deyir, sən hələ məni yaxşı tanımırsan!".

Mən İlhamı uzaqdan-yaxından 30 ildir tanıyıram. Bəs adam 30 il ərzində tanıdığı şəxsiyyət barədə görüb-bildiklərini daha necə dilə gətirər? Özüm də bilmirəm, İlham barədə düşünəndə niyə məhz onu ali məktəbə qəbul imtahanına gələndə sahil bağında — tənha bir skamyada səhəri açan ağ köynəkli abituriyent obrazında görürəm.

Niyə?! Bəlkə o vaxt aktyor olmaq arzusuyla yaşayan sadə bir kəndli gəncin abrı-həyası ona şəhərdə yaşayan qohum-əqrabasının qapısını döyməyə mane olmuşdu?.. Amma o gecə İlhamın gələcəkdə böyük səhnədə tənha və doğmalar arasında qərib bir insanın obrazını oynayacağı rolun debütü oldu. Deyəsən, belə hissləri biz də yaşamışıq axı. Yəni İlham öz müasirlərinin canlı obrazını erkən yaşlarından həyat səhnəsində oynayan bir sənətkardır.

✦✦✦

Biz hər ikimiz Masallıda — Rafiq Tağının "Muğan tərəflər" dediyi yamyaşıl zəmiləri olan qonşu kəndlərdə doğulmuşuq. Bəlkə də lap uzaq qohumuq, xəbərimiz yox!..Əslində mənim Xoşçobanlı, Mollahəsənli kəndlərində qohumlarım var.

Masallının el ağsaqqalarından olan Samı Kəlbiyev dədəmi həmişə qohum deyə çağırardı. O Samı Kəlbiyev ki, Rəsul Rza, Qılman İlkin, Lütvəli Abdullayev, Süleyman Rüstəm, Hüseyn Əliyev, Zeynal Xəlil və Azərbaycanın başqa görkəmli şəxsiyyətləri, sənət adamları onun dostu və qonağı olublar...

İlham tele-müsahibələrində tez-tez el ağsaqqalının adını çəkir. Sinif yoldaşı Siyasət Həsənovu, dostu Hacı Əbülfət Əliyevi, qohumu Bahadur müəllimi də unutmur.

Və yaxın qohum-əqrabaların təbirincə desək, İlham hələ lap uşaq çağlarından "oyun"-çıxardırdı. Bəlkə bu "oyun", "teatr" çıxarmaq hissi onda Samı kişigildə Xalq artisti Lütvəli Abdullayevi görəndə, onun məclisdə zarafatyana dediyi sağlığın Muğan elində dildə-ağızda gəzdiyini eşidən andan yaranmışdı? Ölməz sənətkar Lütvəli Abdullayev Samı kişinin şərəfinə öz sağlığını belə ifadə edirdi: "Həzarat, mənim Azərbaycanda kolxoz sədri vəzifəsində işləyən çox dostlarım var. Bəziləri adama toyuq göndərəndə dəni vermirlər, dən göndərəndə toyuğu. Amma Samı dostum həm toyuq verir, həm də dən..."

✦✦✦

İlk dəfə ali məktəbə daxil olmaq cəhdi daşa dəydi İlhamın... Şirvanda (o vaxtkı Əli Bayramlı) çilingər işlədi. Həyat və əmək təcrübəsi qazandı. Səhnə onunçun həyatın bir parçasıydı. "Müqəddəs ocaq" adlandırdığı səhnədə ilk addımlarını atdı, teletamaşalarda ilk rollarını oynadı...

Səhnədə ölüm səhnəsi yaratmaq kinodakından qat-qat çətindir. Lal obrazını yaratmaq ondan da çətindir. Hüseyn Cavidin "İblis" dramında səhnədə oynadığı lal ərəb roluna görə tamaşanın rejissoru Mehdi Məmmədov kollektiv çəkdirdikləri şəklin arxasına bu sətirləri yazdı: "İlham, lal dilində gözəl danışdığına görə səni təbrik edirəm!".

✦✦✦

Sonra səhnədə sərkərdə, xan, xaqan, kral, böyük siyasi xadim də oldu: Bəxtiyar Vahabzadən "Dar ağacı"nda Sabutay, İlyas Əfəndiyevin "Hökmdar və qızı"nda Məhəmməd xan, Uilyam Şekspirin "Kral Lir"ində Fransa kralı, Əli Əmirlinin "Mesenat"ında N.Nərimanov, Mövlud Süleymanlının "Fatehlərin divanı"nda Bilgə xaqan obrazlarına səhnə ömrü verdi İlham...

Akademik teatrın ən populyar tamaşalarında iştirak etməklə yanaşı, İlham Azərbaycan dövlət radiosunun məşhur "Bulaq" verilişinin aparıcılarından biridir. Çox incə qəlbli, həssas insandı İlham.

Əməkdar artist Əli Salahlı haqqında "Sonuncu monoloq" kitabımı oxuyandan sonra mənə telefonla minnətdarlığını bildirdi. Mənə elə gəldi ki, İlham əyalət teatrlarında çalışan və dünyasını dəyişən sənətkarların yad olunmasına bərk kövrəlmişdi... ( Əli Salahlı 12-13 yaşlarında ilk dəfə çıxdığı səhnədə 59 yaşında Yetim Əlabbasın monoloqunu deyərkən dünyasını dəyişmişdi)

Bir-iki il öncə "Həzrəti Yusif" teleserialında Yaqub peyğəmbərin rolunu səsləndirirdi İlham. Sanki təkcə səsləndirmirdi, həm də həmin rolu oynayırdı. Səsi ayrılıq həsrətindən təşnə olan ürəklərə sərinlik yayırdı... Amma İlham etiraf edir ki, dublyaj zamanı



mətni oxuyarkən bəzi məqamlarda özü də bərk kövrəlib, hətta ağlayıb.

✦✦✦

Və nədənsə xanəndələr həmişə "Apardı sellər saranı" mahnısını oxuyanda, "Gedin deyin Xançobana, gəlməsin bu il Muğana!!" sözlərini eşidəndə yadıma Xalq artisti İlham Əsgərov düşür. İlhamın Muğan toylarında əlində mikrafon, Dədə Qorqudsayağı səsiylə, əzəmətiylə bəylə —gəlinə xeyir-dua verməsinin az şahidi olmamışam.

"Xançoban" söz sövqatıyla hər il Muğana gəlir... Muğanın da, Azərbaycan toy-büsatlarının da söz-sənət aşiqi İlhamsız günü olmasın!

...İlhamın xeyir — duası, səsi zəngin keçmişimizdən bu çağımızacan yol gələn müdriklərin, ağsaqqal babaların ruhunu yaşadır.

✦✦✦

Səhnədə Elçin Həşimovun tarı cuşə gəlir... Xanəndə Məsumun səsi pərdə-pərdə yüksəlir. İlham da qəzəl deyir. Dünyanın gözəlliklərindən zövq alır insan. Dağların hüsnünü örtmüş buludlar aram-aram seyrəlir. Dəmirağac meşəsinə haray düşür, ün düşür: "Dünya yaşamalı dünyadır, qardaş!"

İlhamın səsi neçə-neçə səs dalğasında öz ahəngi öz rəngi, avazı ilə tanınır... Bu səs çalarında neçə-neçə ölməz ustad sənətkarın, cəngavərin obrazı göz önündə canlanır. Yaddaşlara qətrə-qətrə hopur Babək qüruru, Nizami zirvəsi, Füzulinin qəm kərvanı, Nəsimi dəyanəti, Xətainin qılınc və söz sərkərdəliyi... İlham, obrazlı tərzlə desək, ta qədimdən üzü bəri yaranan poeziyamızın vuran nəbzi, döyünən qəlbidir.

Hərdən mənə elə gəlir, İlhamın səsində bizim unudulmaz Sarəngün — Mir Kazım Aslanlının da ruhu pıçıldayır:

**Ax Viləş, qəlbimdə qanlartək,**
**fəğanlartək Viləş,**
**Ax Viləş, gərdişi-dövranda**
**zamanlartək Viləş.**

**Hey axırsan naz ilə, avaz ilə, dəmsaz ilə,**
**Ruhuma lay-lay çalan sənsən**
**kamanlartək Viləş!**

Bir vaxtlar "Bulaq" verilişi bu misraların müəllifinin bəstələdiyi və bu gün radionun qızıl fondunda saxlanılan musiqisi ilə açılardı...

✦✦✦

Bəzən şirin xəyala dalıram. Günlərin bir günü (nədənsə o günün məhz bahar çağlarına təsadüf edəcəyini düşünürəm...) Kazım Ziya sənətini yaşadan Xalq artisti İlham Əsgərov Dədəm Qorqudsayağı səsiylə elimizə — obamıza QƏLƏBƏ müşdəsi verir... İlahi, zəfər təranələri ilə süslənən Azərbaycan necə də möhtəşəm görünür. Taleyin və tarixin min cür sınağına sinə gərən Qarabağ eli bayram libasına bürünür. Pərən-pərən düşmüş insanlar yurd yerlərinə dönür. İlhamın səsi AZADLIQ meydanına nur çiləyir: "Gözün aydın, Azərbaycan!"

✦✦✦

Tarixçilərin yazdığına görə qədim muğanlı cəngavərlər boylu-buxunlu olublar. İlham səhnədə də, həyatda da mənə o qədim cəngavərləri xatırladır:

— Ehey, siz niyə belə cırlaşıbsınız, — deyir, — Niyə bir-birinizdən aralı düşübsünüz. Çiyinlərinizi bir-birinə söykəyin, qardaşlar, bir olun! Yurdumuzun nicatı bizim birliyimizdədir.

...Yaradıcılığın otuz illik gecəsində dostlarından biri ona Məkkədən üzük gətirmişdi.

Bəlkə o üzük mənin barmağımda elə də parlaq görünməzdi, amma "İncəsənət qvardiyasının sərdarı" , söz sərkərdəsi İlham Əsgərovun barmağına yaraşırdı. İlham bütün vücudu ilə, ululara xas səsi ilə səhnədə daha əzəmətli görünür.

Qəribədir, son vaxtlar mən onu istər kinoda. İstər teatr səhnəsində yalnız özümün arzuladığım rollarda görürəm: Şah İsmayıl Xətai, Nadir şah Əfşar, Qaçaq Mozu... Sonuncunu tanımadınız yəqin! Qaçaq Mozu elə qaçaq Nəbi kimi bir igid olub bizim Muğan tərəflərdə. İlhamın həmkəndlisidir. Ona öz zəmanəsinin Robin Qudu da demək olar.

✦✦✦

Nə isə... Son vaxtlar həyat səhnəsində qəfil itirdiklərimiz o qədər çoxdur ki! Ölüm mələyi nə ad-sana baxır, nə də yaşa. Bir gün eşitdim ki, çağrılmamış qonaq kimi xəstəlik İlhamın da ünvanını tapıb. Allah qıymasın,dedim, hələ səhnədə oynayacağı çox rollar, həyatda görəcəyi çox işləri var. Şükürlər olsun Allaha, sağaldı, ad günü "Space" kanalında toy-bayram kimi qeyd olundu.

Və sonda üzümü xeyli vaxtı görmədiyim sevimli aktyora tutub deyirəm: İlham, bu yazını, mən yazmadım qardaş, sən yazdın! Sən özün barədə yazılan və yazılmayan çox sanballı fikirlərin müəllifisən. Uca Rəbbimiz səni qorusun!

Sənin sənətinə və şəxsiyyətinə ehtiramla,

**Nurəddin ƏDİLOĞLU,**
**Yazıçı-jurnalist.**

# Şəkidə "Şəhər günü" və Mirzə Fətəli Axundzadənin yubileyi təntənə ilə qeyd edilib

Şəkinin yaranmasının 2700 illiyi və "Şəhər günü" ilə əlaqədar Azərbaycanın bu qədim və gözəl şəhərində bayram tədbirləri keçirilib. Tədbirlərdə Mədəniyyət və Turizm Nazirliyinin, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA), dövlət qurumlarının nümayəndələri, Milli Məclisin deputatları, Türkiyənin Konya şəhərinin Meram bələdiyyəsinin nümayəndələri, Qazaxıstan, Rusiya Federasiyasının Başqırdıstan Respublikasının və Türkiyənin tanınmış teatr, musiqi və rəqs kollektivləri, ziyalılar və ictimaiyyətin nümayəndələri iştirak ediblər. Şəki şəhər icra hakimiyyətindən verilən məlumata görə, tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin şəhər icra hakimiyyətinin qarşısında ucaldılmış abidəsi önünə gedərək onun xatirəsini ehtiramla yad ediblər. Sonra şəhərin Azadlıq Meydanında bayramın təntənəli açılış mərasimi olub. Şəhər icra hakimiyyətinin başçısı Elxan Usubov zəngin tarixə, qədim mədəniyyətə malik olan Şəki şəhərində ilk dəfə "Şəhər günü" bayramının keçirtilməsinin mühüm əhəmiyyət daşıdığını qeyd edib. İcra başçısı çıxışında prezident İlham Əliyevin "Elə tarixi şəhərlər var ki, onların Azərbaycan tarixində, Azərbaycan xalqının formalaşmasında, Azərbaycanda dövlətçiliyin əsaslarının yaradılmasında xüsusi rolu vardır. Şəki o şəhərlərdəndir" sözlərini xatırladıb".

AMEA Tarix İnstitutunun direktoru, Milli Məclisin deputatı Yaqub Mahmudov Şəkinin tarixən Azərbaycanın şimalı-qərbində mühüm siyasi, sosial-iqtisadi və mədəni mərkəz hesab olunduğunu diqqətə çatdırıb: "Bu gün Şəki şəhəri orta əsr Şərq şəhərlərinə məxsus olan şəhərsalma mədəniyyətini özündə qoruyub saxlayan bir məkandır. Şəhərdəki nadir tarixi-memarlıq abidələri- karvansaraylar, məscidlər, minarələr, evlər, qala divarları, körpülər buranın qədim memarlıq üslubundan xəbər verir".

Milli Məclisin deputatı Hadı Rəcəbli və digər qonaqlar çıxış edərək Şəkidə ilk dəfə keçirilən "Şəhər günü"nün şəhərin bütün sakinlərinin, qonaqların yaddaşında xoş xatirə kimi qalacağını bildiriblər. Tədbirdə Şəki Musiqi Kollecinin xor kollektivi maraqlı konsert proqramı ilə çıxış edib. Bayram tədbiri daha sonra şəhərin tarixi məkanlarından birində — Şərq memarlığının nadir incisi, XVIII əsrə aid tarixi-memarlıq abidəsi olan Şəki xanlarının sarayının həyətində davam etdirilib.

Bayram tədbirləri çərçivəsində sentyabrın 23-də "Şəki-Saray" otelində Şəki şəhəri ilə Türkiyənin Konya şəhərinin Meram bələdiyyəsi arasında qardaşlıq münasibətlərinin yaranması münasibətilə mərasim keçirilib. Qardaşlaşmaya dair sənədləri Şəki şəhər bələdiyyəsinin sədri Fikrət Cəfərov və Konya şəhərinin Meram bələdiyyəsinin başqanı Sərdar Kalaycı imzalayıblar. Bayram tədbirlərinə "Aşağı Karvansaray" kompleksində Türkiyənin "Anadolu atəşi" rəqs ansamblının konserti ilə yekun vurulub.

Şəkidə görkəmli maarifçi və ictimai xadim, milli dramaturgiyamızın banisi Mirzə Fətəli Axundzadənin 200 illik yubileyilə də bağlı tədbirlər keçirilib. M.F.Axundzadənin ev-muzeyinin açılışı ilə tədbirlərə start verilib. Şəki şəhər icra hakimiyyətindən qəzetimizə verilən məlumata görə, mərasimi şəhər icra hakimiyyətinin başçısı Elxan Usubov açaraq böyük Azərbaycan mütəfəkkiri, milli dramaturgiyamızın banisi, ictimai xadim Mirzə Fətəli Axundzadənin yubiley tədbirlərinin onun vətəni Şəkidə keçirilməsinin şəhərin mədəni həyatında çox əlamətdar hadisə olduğunu bildirib.

TÜRKSOY-a üzv olan ölkələrin, o cümlədən Türkiyə, Qazaxıstan və Rusiya Federasiyası Başqırdıstan Respublikasının nümayəndələrinin, türkdilli ölkələrin diplomatlarının da qatıldığı mərasimdə mədəniyyət və turizm nazirinin müavini Vaqif Əliyev M.F.Axundzadənin yubiley tədbirinin təkcə Şəkidə deyil, eləcə də bütün respublikada ədəbiyyat, poeziya və söz bayramı sayıldığını qeyd edib.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Mahmud Kərimov M.F.Axundzadənin yubileyinin geniş səviyyədə qeyd edilməsinin Azərbaycan xalqının bu böyük şəxsiyyəti çox yüksək dəyərləndirdiyinə sübut kimi vurğulayıb.

Milli Məclisin elm və təhsil komitəsinin sədri, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Şəmsəddin Hacıyev M.F.Axundzadənin yalnız Şəkiyə, eləcə də Azərbaycana məxsus olmadığını, onun yaradıcılığının və şəxsiyyətinin ölkəmizin hüdudlarından çox-çox kənara yayıldığını diqqətə çatdırıb.

Milli Azərbaycan Tarixi Muzeyinin direktoru akademik Nailə Vəlixanlı bildirib ki, böyük şəxsiyyət olan M.F.Axundzadənin həyatı bu gün də hər birimiz üçün örnəkdir.

Azərbaycanın əməkdar rəssamı Teymur Rzayev müəllifi olduğu M.F.Axundzadənin portretini şəhər rəhbərliyinə təqdim edib.

Sonra muzeyin yeni inşa edilmiş ekspozisiya binasının açılışını bildirən rəmzi qırmızı lent kəsilib. Məlumat verilib ki, 2011-ci ilin yanvarında Mədəniyyət və Turizm Nazirliyi tərəfindən başlanılan təmir-bərpa işlərindən sonra ev-muzeyi əsaslı şəkildə yenidən qurulub, burada ekspozisiya zalı, fond və inzibati otaqlardan ibarət yeni inzibati bina inşa edilib. Ekspozisiya zalında Mirzə Fətəli Axundzadənin həyat və yaradıcılığına aid 300-ə yaxın eksponat nümayiş etdirilir.

Daha sonra yubiley tədbiri M.F.Axundzadənin adını daşıyan, əsaslı şəkildə yenidən qurulmuş mədəniyyət və istirahət parkında davam etdirilib. Mərasimdə iştirak edən AMEA Tarix İnstitutunun direktoru, millət vəkili Yaqub Mahmudov, Azərbaycan Müəllimlər İnstitutunun rektoru, millət vəkili Aqiyə Naxçıvanlı, millət vəkili Cavanşir Feyziyev, Avrasiya Yazarlar Birliyinin üzvü, Türkiyədə M.F.Axundzadə irsinin tədqiqatçısı İmdat Avşar və başqaları çıxış edərək böyük ədibin yaradıcılığının ən dəyərli məqamlarını vurğulayıblar.

Şəkidə "Mirzə Fətəli Axundzadə-200" mövzusunda beynəlxalq elmi simpozium da keçirilib.

**S.MÜRVƏTQIZI**

# İmdat Afşar: "Mirzə Fətəli Axundov bütün Türk dünyasının dahi şəxsiyyətlərindən biridir"

Türkiyənin tanınmış yazıçısı, Azərbaycan ədiblərinin əsərlərini türkcəyə tərcümə edən Avrasiya Yazarlar Birliyinin üzvü İmdat Afşar və uşaq ədəbiyyat yazarı Həsən Kalemçi Bakıya gəlib. İmdat Afşarın APA-ya verdiyi məlumata görə, səfərin məqsədi Azərbaycan dramaturgiyasının banisi Mirzə Fətəli Axundzadənin 200 illik yubiley tədbirlərində iştirak etməkdir. Qonaq yazıçı bildirib ki, artıq onlar Şəkidə M.F.Axundzadənin yubiley tədbirlərində iştirak ediblər və bu tədbirlərdə iştirak davamlı xarakter daşıyır: "Mirzə Fətəli Axundzadənin pyeslərini tərcümə etmişəm və bu işi davam etdirəcəyəm. Sentyabrın 21-i axşam Şəkidə olduq və orada tədbirlərdə iştirak etdik. Qazaxıstan, Başqırdıstan, Türkiyə, Konyadan və digər ölkələrdən qonaqlar qatıldı. İki gün boyunca Mirzə Fətəli Axundzadə simasında Türk dünyası birləşdi. Mirzə Fətəli Axundzadə tək Azərbaycanın deyil, bütün Türk dünyasının dahi şəxsiyyətlərindən biridir".



İ.Afşar Azərbaycan klassik və müasir müəlliflərin əsərləri ilə bağlı çalışmaların olduğunu da deyib. Avrasiya Yazarlar Birliyinin üzvü Bakıda Xurşidbanu Natəvanın 180 illiyi münasibəti ilə bağlı tədbirdə də iştirak edəcək.

# Əli Poladın "Bir damcı su" kitabının təqdimatı olub

Sentyabr ayının 21-də Azərbaycan Yazıçılar Birliyinin (AYB) Natəvan klubunda Əli Poladın "Bir damcı su" kitabının təqdimat mərasimi keçirilib. Tədbiri giriş sözü ilə açan AYB sədri Anar qonaqları salamladıqdan sonra müəllif və onun təqdim olunan kitabı haqqında fikirlərini söyləyib: "Əli Polad fikir adamı, düşüncə adamıdır, eyni zamanda bir çox kitabların müəllifidir, naşiridir. Müəllif "Bir damcı su" kitabında suyun fiziki xassələri, insana xeyri, ziyanı, həmçinin Azərbaycanın su ehtiyatları haqqında məlumat verir".

Kitabı Azərbaycan dilinə tərcümə edən, redaktor və önsöz müəllifi Qumru Şəhriyar çıxışında Əli Poladdan su haqqında çox böyük bir dərs aldığını, böyük bir dünya ilə tanış olduğunu deyib:-




"Su ilə bağlı zəngin məlumatı olan bu kitabı Azərbaycan dilinə çevirməkdə məqsədimiz inanclarımızda özünəməxsus yerlərdən birini tutan suyun əslində insan həyatında, kainatda, bəşəriyyətin mövcud olmasında nə qədər əhəmiyyətli rol oynadığını vurğulamaqdır. Güman edirik ki, bu kitabı əlinə alan hər kəs o anda bir stəkan su içəcək və bu onun həyat tərzinə çevriləcək".

Təqdimat mərasimində Fikrət Qoca, Cavad Heyət, Kamil Vəli Nərimanoğlu, Faiq İsmayılov, Asif Kəngərli, Sayman Aruz və başqaları çıxış edərək Əli Poladın şəxsiyyətindən, yaradıcılığından söz açıblar, təqdim olunan kitabın məziyyətlərindən danışıblar.

Sonda çıxış edən Əli Polad tədbirin keçirilməsinə görə Azərbaycan Yazıçılar Birliyinin rəhbərliyinə, toplaşanlara, kitabın nəşrində xidmətləri olanlara təşəkkürünü bildirib.

# "Voloşin sentyabrı" X Beynəlxalq Şeir Simpoziumu haqqında təəssüratlar

*(Əvvəli 2-ci səh.)*

Bəli, ədəbiyyat məncə elə bir qüvvədir ki, onu sevənləri hətta ölümün pəncəsindən belə qoparmağa qadirdir!

Bir şeyi yazmağı unutmayım. Azərbaycan poeziyası saatından əvvəl, sabah erkən M. Voloşinin qəbri ziyarət olunacaqdı. Öz tədbirimizə gecikə bilmək qorxusu olsa da, biz hər ikimiz, bunu çox vacib hesab edərək, dəstəyə qoşulduq. Bu şəhərə gəlib şeir gecələrinin iştirakçısı olmaq, amma o böyük ürəkli şairin qəbrini ziyarət etməmək ən azından nankorluq olardı.

Hər birimiz dəniz sahilindən iki daş götürüb ucu-bucağı görünməyən yola üz tutduq. "Bənövşənin xətrinə kol dibinə iz düşdü" deyən şair nə qədər də haqlı imiş. Düz səksən ildir ki, şeirə, sənətə sevgi insanları dəniz sahilindən dağların zirvəsindəki tək mazara doğru çəkir.Və insanların şairə və şeirə olan sevgisi dağ yamacını cadar-cadar yola çevirib. Budur insanlığın bitib tükənməyən sənət sevgisi!

Ömrünü sadə yaşayan və hər zaman xeyirxahlıq rəmzi olan mərhum şairin qəbri də dəbdəbədən uzaq idi. Müsəlman olmasa da, bütün dinlərə ehtiram bəsləmiş insanın qəbrinin üstündə dua oxumaya bilməzdik. Ürəyimizdə bir ümid işığı, onun müqəddəs ədəbiyyatçı ruhundan gələcək işlərimizdə bizə kömək olmasını dilədik.

Günəşin qaynar şüaları altında bizə bu yolu qət edib, geriyə yorulmadan qayıda bilməkdə və sonra da müvəffəqiyyətlə çıxış etməkdə Voloşin möcüzəsinin olmamasına məni kimsə inandıra bilməz. Allah bütün məhhum şairlərə və ürəyi ədəbiyyat sevgisiylə dolu yazarların ruhlarına rəhmət eləsin!

...Məhz həmin günə — sentyabrın 15-nə təyin olunmuş Azərbaycan Poeziyası gecəsi başladı. İlk öncə gecəni moskvalı şair, Məmməd İsmayıl şeirlərinin böyük pərəstişkarı və eləcə də rus dilinə tərcümə edənlərdən biri — Mixail Sinelnokov açdı. O şairimizi bütün layıq olduğu gözəl sözlərlə dinləyicilərə bir daha təqdim edərək sözü ona verdi. Məmməd bəy mikrofonu əlinə aldığında meydana sükut çökdü. Hər kəs diqqət kəsilərək onu dinləməyə müntəzir dayandı. Və ardınca əzbərdən dediyi şeirlər... A. Kuşnerin, M. Sinelnikovun tərcüməsində də Məmməd İsmayıl şeiri cazibədardı... Rus dilli oxucular bizim poeziyanı öz dilində mənimsəyir və sevməyə bilmirdi. Bu şeirlər elə bir qələmdən süzülmüşdülər ki, sevilməyə məhkum idilər.

Daha sonra M. Sinelnikov və Q.Kalaşnikov azərbaycanlı dostlarının — Məmməd İsmayılın şeirlərindən örnək tərcümələr oxudular.

Sonra söz mənə verildi. Mən "İki tarix" və "Nədən mənim deyilsən" adlı şeirlərimi ifa etdim. Tərcümələr M. Sinelnikova və S. Karatova məxsus idi. Necə qarşılandığını özüm deyə bilməyəcəm, amma şair dostlarımın sevgi dolu baxışları heç də fəna olmadığını söyləyirdi.

Azərbaycan poeziyası gecəsindən sonra M. Sinelnikovun öz şeirləri səsləndi. Ardınca Polşa şeirləri axşamı, və daha sonra da, E. Çiqrinin və B. Kendjiyevin yeni kitablarının təqdimat mərasimi oldu.

Bir-birinin ardınca keçən bu maraqlı tədbirlər axşamüstü ayrılıq gecəsinə çevrildi. Qapanış gecəsi Qara dənizin sahilindəki meydanda təşkil olunmuşdu: Simpozium iştirakçılarının diplom təltifləri, son sözlər və vidalaşmalar... Qapanış mərasimində mənə gözəl şeirlərə və səlist ifaya görə Simpoziumun "Təşəkkür bəlgəsi", sevimli şairimizə isə ən gözəl şeirlərə görə "Voloşin sentyabrı" diplomu təqdim olundu. Hətta muzeydə əbədi saxlanacaq, üzərində M.Voloşinin şəkli olan mis lövhələrdən birində Məmməd müəllimin öz dəst-xətti ilə gözəl şeirlərindən bir parça da həkk olundu:

**"Beləcə bir ömrün dastanı bitər,**
**Çay daşar, sel gedər, sahillər qalar.**
**Adilər illərə qoşulub itər,**
**Zamandan zamana dahilər qalar!**

Belə dahilərdən biri olan M.Voloşin əbədi yaşamaq səlahiyyətini hələ sağlığında qazanmış sənətkardır, ruhu şad olsun!"

Təltif olunanlar adından çıxış etmək şərəfi də şairimizə nəsib oldu: "Biz bu gün məkanı və ruhu Allaha yaxın olan böyük M.Valoşinin sadədən sadə məzarını ziyarət etdik. Bilirsinizmi o məzar və ruh bizə nələr pıçıldadı: Allah və Allahın insanlara bəxş etdiyi həzzin qaynağı olan poeziya Allahın özü kimi əbədidir!"

Doğru sözə nə əlavə edə bilərik?!

**Afaq ŞIXLI**
**Avrasiya Yazarlar Birliyinin üzvü**



*Əlniyaz ZEYNALLI*

## Xalqın ürəyində yaşayacaqsan

***Milli Qəhrəman***
***Mübariz İbrahimovun ölümünə***

Xalqın dar günündə durub-dözmədin,
İlk gündən xidmətdə oldun mərd-mətin.
Şəhidliyin yolu çətindən-çətin,
Xalqın ürəyində yaşayacaqsan.

Vüqarla doğrultdun Mübariz adın,
Döndün əzizinə qohumun-yadın.
Sən yurda adi bir oğul olmadın,
Xalqın ürəyində yaşayacaqsan.

Sən mərdlik yolunu açdın gənclərə,
Bir mübariz oldu sonradan hərə.
Mərdliklə ucaldın yerdən göylərə,
Xalqın ürəyində yaşayacaqsan.

Milli qəhrəmanı çağrıldın elin,
Tək çıxdın önünə gürrah bir selin.
Mərd qurbanı oldun əsən bir yelin,
Xalqın ürəyində yaşayacaqsan.

Müqəddəsləşdirdin ata-ananı,
Gecə-gündüz sənə candan yananı.
Qorudun, ucaltdın Azərbaycanı,
Xalqın ürəyində yaşayacaqsan.

+++

Sevgilim, sevincinə, üzdəki gülüşünə,
Qəlbə hər gəlişinə, hər vaxtsız gedişinə.
Atdığın hər addıma, əməlinə işinə,
Sənlə şərik olmağa hazıram, gülüm, hazır

Aytək nuru sönməyən işıqlı varlığına,
Dünəninə, əzizim, bu günə, sabahına.
Heç vaxt nuru sönməyən Günəş parlaqlığına,
Sənlə şərik olmağa hazıram, gülüm, hazır

Övladcanlı, ərcanlı, evcanlı olmağına,
Taleyin hər anının qarasına, ağına,
Qəmli ötən anına, gülər üzlü çağına,
Sənlə şərik olmağa hazıram, gülüm, hazır

Həsəd aparmamısan heç vaxt qohum-qonşuna,
Baxmadın gəlinlərin üstündə daş-qaşına,
Min dəfə şükr etmisən nə çıxıbsa qarşına,
Sənlə şərik olmağa hazıram, gülüm, hazır

Fəxr edirəm həmişə sənin varlığınla mən,
Ən xoşbəxt bir kişiyəm, inan ki, bununla mən,
Belə yüz yaşayasan enməz qürurunla sən.
Sənlə şərik olmağa hazıram, gülüm, hazır

+++

Sənə bel bağlayıb səni sevmişəm,
"Tale qismətimsən mənim" demişəm.
Beləcə könlümü sənə vermişəm,
Sənin saf eşqinə inanmışam mən.

Həmişə mən səndən gördüm sədaqət,
Bizi birgə tapdı bu saf məhəbbət.
Tale bəxşişidir bizə bu qismət,
Sənin saf eşqinə inanmışam mən.

Qırx ildir can deyib, can eşitmişik,
Bütün arzulara birgə yetmişik.
Oğul yetirmişik, qız böyütmüşük,
Sənin saf eşqinə inanmışam mən.

Mənimçin ilahi huri-mələksən,
Heç zaman solmayan gülsən, çiçəksən.
Mənim gözlərimdə yeganə, təksən,
Sənin saf eşqinə inanmışam mən.

Səni görmək üçün hey can atmışam,
Hər səni görəndə kama çatmışam.
Sənlə bütün dərdi, qəmi atmışam,
Sənin saf eşqinə inanmışam mən.

Allah səni məndən ayrı salmasın,
Allah bu sevgimə mənim qıymasın.
Tanrı arzumuzu gözdə qoymasın,
Sənin saf eşqinə inanmışam mən.

+++

Yüzünü görsəm də, yerini verməz,
Bu gözəlliyini hər baxan görməz.
Səni görməyəndə gözlərim gülməz,
Səni gündə bir yol görə biləydim.

Sənə nəğmə deyər hər zaman dilim,
Gül bitər əlinlə yığılsa külüm.
Dünya gözəllərlə doludu gülüm,
Sənə öz könlümü verə biləydim.

Sənə sevgi ilə doludur sinə,
Sevərdim, qoymazdım bu sevgisinə.
Yetənə deməzdim tək bircə sənə,
Ürəyimi açıb, sərə bilsəydim...

Həyat bəxş eləyər gülüşün mənə,
Naz-qəmzə görsənər hər işin mənə.
Ömrümü artırar öpüşün mənə,
Sənlə xoş bir ömür sürə biləydim.

Gözlərin gəl-gəl deyir Əlniyaza,
Səninlə çıxaydım bahara, yaza.
Ömür boyu səndən hey yaza-yaza,
Səni gül-çiçək tək dərə biləydim.

# Tənqid dedi-qoduya dönəndə...

## ƏSƏD CAHANGİRƏ CAVAB

Holland atalarının belə bir sözü var: "Bir dəfə evlənmək əyləncə, iki dəfə evlənmək təcrübə, üç dəfə evlənmək isə axmaqlıqdır!"... Lətifənin birbaşa mənası Əsəd Cahangirdən uzaq, alt qatındakı məna, fikrimcə, bizim söhbətə xeyli yaxındır. Niyəsi də budur ki...

...Yazılarında nə dərəcədə haqlı, qeydlərinin nə qədər doğru olduğunu bir yana qoyaq, gənclərin buraxdıqları "Ulduz" jurnalının iyul nömrəsi haqda, peşəkar tənqidçi kimi, Əsəd bəyin I yazısını ümumiyyətlə dəyərləndirmək və alqışlamaq lazımdı — "alqışladıq". Deyək ki, ürəyi soyumayan və bir qədər də gündəmdə qalmaq istəyən Əsəd bəyin II yazısını onun intellektinə, dühasına "bağışladıq". Fikrimcə, söz və ifadələri, fikirləri ümumiləşdirərək, yersiz söhbətlərdən, dedi-qodudan uzaq bir tənqidi məqalə hazırlamaq olardı. Amma iki irihəcmli yazıda fikirlərini çatdıra bilməyən, növbəti yazısını, məhz yazdıqlarından anlaşıldığı kimi, iştirak etmək arzusunda olduğu qonaqlığa dəvət almamasının gileyi ilə başlayan Əsəd bəyin bu III yazısını neyləyək? Bəlkə "ulduzlar"ın aldandığını qeyd edən tənqidçinin ulduzu sönüb? Bəlkə elə buna görə şou-biznes əhli kimi gündəmdə qalmaq üçün ucuz qalmaqallar yaradır, yerli-yersiz ona-buna daş atıb hay-küy salır?

Madam ki, hörmətli tənqidçimiz öz yazısında mənim şeirlərim üzərində "geniş dayanmaq(?)" istəyib və özünə sərf edən qədər dayanıb, fikrimcə, ona geniş cavab vermək istəyim yersiz görünməz.

+++

Özünün də qeyd etdiyi kimi, məhz Aysel Əlizadə jurnalın üz qabığında iki şəklimi birdən yerləşdirib.

"Azadlıq radiosu"nun "Oxu zalı"nda keçirilən şeir yarışmasında (xatırladıram ki, şeir üzrə müsabiqə ilk dəfə keçirilirdi) münsiflər məni qalib kürsüsünə çıxarıblar (daha bir xatırlatma: əsərlər münsiflərə imzasız şəkildə təqdim olunub, onların kimliyi mükafatların təqdimatı zamanı açıqlanıb və bütün bunlardan çıxan nəticə özümə görə yox, məhz sözümə görə qalib gəlməyimin sübutudur); Salam Sarvan məni "istedadlı şair" kimi deyil, istedadlı gənc kimi qiymətləndirib, (necə ki Əsəd bəyin özü də belə qiymətləndirmişdi) oxucuları dəstək olmağa çağırıb. Və mən bütün bunların hamısını, sadəcə, yüksək stimul kimi qiymətləndirirəm.

Hörmətli Əsəd bəy, bütün bunlar yalan olmasa da, mənim "Hələ ki zəif yazıram, yaxşı şeirlərim azdır və özümü heç vaxt şair hesab etməmişəm, şair adlandırmamışam!" həqiqətinə olan inamıma əngəl törətmir. Ortada olan tək yalan isə, "Şair şeiri ilə tanınmalıdır, dedi-qodusu ilə yox. Müzakirəyə şeirlərimlə qoşulmaq istəyirəm!" (vurğunu "dedi-qodu"nun üstünə qoyub, "şair"i termin kimi anlamaq lazım) cümləsini təhrif edərək "Şair müzakirəyə öz şeirləri ilə qoşulmalıdır!" formasında — iddia halında təqdim etməyinizdir. Haqlı deyiləmmi?!

Bura qədər aydındısa, gələk, iddia nümayiş etdirmək üçün deyil, həqiqətən, oxucular tərəfindən tənqid olunmaq (münasibətlərini öyrənmək) üçün şeirlərimi sayta təqdim etməyimə. Səbəb? Səbəb çox sadədir və mənə çox qəribə gəlir ki, müzakirə zamanı o qədər yazı yazıldı, kimsə bu məsələyə toxunmadı, hörmətli tənqidçi, siz özünüz də... Çox uzağa getmədən, yaxınlardan misal gətirim: Bildiyiniz kimi, "Oxu zalı"nda roman müzakirələri keçirilir və oxuculara əvvəlcə, ən azı ümumi təsəvvür yaratmaq üçün, romandan bir parça təqdim olunur, daha sonra isə tənqidi məqalələr verilir. Jurnalı siz oxumuşdunuz, jurnal haqqında yazı yazanlar oxumuşdu, bəs oxucular? Belə olan halda, yazılanlar dedi-qodudan başqa nə sayılmalıdır? Yazılanların ümumi səviyyəsi haqda isə heç danışmasaq yaxşıdır. Hər halda, heç olmasa, bir neçə nümunə dərc edilməli idi. Hə, nə deyirsiniz, mövqeyim məntiqli deyilmi?!

+++

Əsəd bəy müxtəlif vaxtlarda şeirlərimi V.Səmədoğlunun, R.Rövşənin, S.Sarvanın, A.Yeniseyin şeirlərinə bənzədib. Ömründə Vaqif Səmədoğlunun bir kitabını əlinə almayan, cəmi bir neçə şeirini oxuyan, təkcə "Bir axşam taksidən düşdüm payıza" misrasını əzbər bilən birisi ondan necə təsirlənə bilər?! Bir də ki, "Bağışla" hara, V.Səmədoğlu hara? Yenə R.Rövşən desəydi, dərd yarı olardı. R.Rövşən və S.Sarvan məsələsində isə Əsəd bəyə haqq qazandırmaq olar bəlkə də. Çünki hər iki müəllifin özünəməxsus şeir intonasiyası var və şeirlərimdə özüm də onları şüuraltı təsirini hiss edirəm. Lakin şüuraltı baş verən bir şeyə görə epiqonçuluqda, hətta özünü kiməsə bənzətməkdə günahlandırılmaq nə qədər doğrudur?! Təsir və təqlid — fərqli sözlər, çox fərqli anlayışlardır. Tənqidçimiz bunu bilməmiş olmasa da, nədənsə özünü bilməmiş kimi göstərib. Qaldı ki, Aqşindən təsirlənməyimə, onun şeir intonasiyası mənə çatmır və bu halda, təsirdən söhbət gedə bilməz. Təsir demişkən, keçək təkrir(lər)ə. Əsəd bəy Aqşinin "Kənd" şeirini nümunə gətirir ki, bu, naşılıqdan başqa bir şey deyil. Çünki bir neçə dəqiqəlik araşdırma kifayət edər ki, Azərbaycan ədəbiyyatında bir neçə müəllifin bu kimi təkrirlərdən istifadə edərək yazdığı şeirlərə rast gələsən. Mənim "kəndimə çatmamağım" təbiidir, çünki üzü gələcəyə gedirik və mən bu yoldayam, axtarışdayam, özümü tapacağıma əminəm. Amma nə yazıq ki, "Kənd"dən əvvəlkilər Əsəd bəyə çatmayıb.

Üç hissəyə bölünmüş doqquz bəndlik şeirdən bir bənd götürüb onu ayrıca təhlil etmək, daha sonra anlaşılmaz "kim?", "nə?" suallarını vermək və cavab tapa bilməyib bəndi "söz yığını" adlandırmaq peşəkar tənqidçi üçün bağışlanmazdır. Demirəm ki, həmin şeir güclüdür, şedevrdir, nədir... Əsla! Amma deməliyəm ki, həmin şeirdə bütün bəndlər bir-birilə bağlıdır və hörmətli tənqidçimiz şeirə bu cür yanaşmağa davam etsə, çox cavabsız suallar verməli olacaq, çox suallar onun üçün cavabsız qalacaq.

"Sevgiyə elegiya" şeirinin gah "yalançı modernizm", gah "tapmaca effekti doğuran şeir" adlandırılması qərəzli fikirlərin nümayişindən başqa nədirsə, elə o özü də, qərəzlidir.

"Sevdim səni" şeirinə yanaşma isə hardasa haqlı olsa belə, həddindən artıq kinayəlidir və özünü peşəkar adlandıran birinin şeirə bu cür yanaşması qəbuledilməzdir.

+++

Gələk "keçmişə səyahət" məsələsinə...

Bir neçə il əvvəl Əsəd bəylə tanışlığım, onun şeirlərimə münasibəti, tənqidçi məsləhətləri... sonralar mənə çox kömək oldu, şeirə münasibətim dəyişdi, yaradıcılığımda irəliləyişlər baş verdi. Bütün bunlara görə içimdə ona qarşı həmişə minnətdarlıq hissi olub və dəfələrlə təşəkkürümü bildirmişəm. Ancaq bundan başqa, tənqidi yazılarında qərəzli fikirlərə yol verdiyini, bəzən haqsız çıxışlar etdiyini, bəzən tərəf tutduğunu, bəzən süni sima aldığını, rola girdiyini və sair bu kimi xoşagəlməz xüsusiyyətlərini də ikili söhbətdə onun nəzərinə çatdırmışam. İndi keçmişi kinayə ilə xatırladıb, "o mənə belə dedi, mən ona belə dedim" tipli dedi-qodu təsiri bağışlayan cümlələrə öz yazısında yer ayırması ya yaxşılığı başa qaxmaqdır, ya yazının həcminə "işləmək"dir, ya da hər nədirsə, hiss edirəm və dəqiq bilirəm ki, heç yaxşı iş deyil. "Şekspir çətin ki, bizə bir şey versin!" — bu da onun növbəti təhrifidir.

+++

Və sonda: Əsəd bəy, indi şeirə ilk görüşümüz zamanı şeirdən uzaq olduğum qədər yaxın hiss edirəm özümü. Özüm üçün yazmıram özümə aid olsa da, yazdıqlarımda irəliləyiş hiss edirəm və bu irəliləyişi, siz deyən kimi, mətbuat səhifələrinə çıxarmayıb öz içimdə keçirsəm, yerimdə saya və ya geriyə addımlaya bilərəm. Və elə buna görə, yazdığınız kimi deyil, siz yanılırsınız, mən isə "bəlkə"siz haqlıyam!

İstər siz olun, istər başqası, hər zaman qərəzsiz sözləri həzm edəcək, onlardan nəticə çıxaracaq gücdəyəm. Hər şeyə rəğmən, yenə sizə minnətdarlığımı bildirirəm, "dəqiq, vicdanlı, qərəzsiz" tənqidi fikirlərinizi hər zaman gözləyirəm!

**Hörmətlə**

Yenə də yorğun olacağı üçün "dərs gedə-gedə oturduğu yerdəcə ayaqlarını ayaqlarının üstünə aşırıb, qollarını sinəsində çarpazlayıb yatmayacaq(?)", gözüyumulu vəziyyətdə sizin Şekspir yaradıcılığı haqqında mühazirələrinizi böyük həvəslə dinləyəcək tələbəniz

**Elmar ŞAHMAR!**

## UEFA "Neftçi"ni cəzalandırdı

UEFA-nın İntizam Komitəsi iyulun 17-də keçirilən "Neftçi"-"Zestafoni" matçı ilə bağlı qərarını açıqlayıb.

Qurumun qərarına əsasən Azərbaycan klubu cərimə olunub.

UEFA-nın "Neftçi"yə ünvanladığı məktubda buna səbəb "Neftçi" — "Zestafoni" matçının 21 və 62-ci dəqiqələrində azarkeşlərin 4 ədəd fişəng yandırması, eləcə də fanatların 75, 78 və 82-ci dəqiqələrdə meydançaya kağız rulon atması göstərilib.

Bundan başqa final fitindən dərhal sonra fotoqrafların meydançaya daxil olmasını da Avropanın ali futbol qurumu yolverilməz hal kimi qiymətləndirib.

Nəticədə UEFA-nın İntizam Komitəsi müvafiq bəndləri əsas gətirərək, klubu 20 min avro məbləğində cərimələyib.

## Kapitan İngiltərə millisindən getdi



İngiltərə yığmasının kapitanı Con Terri yığmadan gedəcəyini bildirib. Bu barədə "BBC News" xəbər yayıb.

Futbolçunun dediyinə görə, bu addımı atmasının səbəbi İngiltərə Futbol Assosiasiyasının onu irqçilikdə günahlandırmasıdır.

Xatırladaq ki, Con Terri "Kvinz Park Reyncers"in qaradərili futbolçusu Anton Ferdinanda qarşı irqçi hərəkətdə ittiham edilirdi.

Bundan sonra Terri ictimaiyyətin təzyiqi ilə yığmanın kapitanlıq sarğısını belə itirməli olmuşdu. Qalmaqal həm də yığmanın baş məşqçisi Fabio Kapellonun istefasına gətirib çıxarmışdı. Maraqlıdır ki, Terri hətta məhkəməyə verilib, amma bu ilin iyulunda məhkəmə ona bəraət qazandırıb.

Onu da vurğulayaq ki, Con Terri İngiltərə yığmasını heyətində 78 oyuna çıxıb.

## Kapello Denisov və Kerjakovu millimizlə oyuna çağıracaq

Rusiya milliisinin baş məşqçisi Fabio Kapello Sankt-Peterburqun "Zenit" klubunun iki futbolçusu — yarımmüdafiəçi İqor Denisov və hücumçu Aleksandr Kerjakovu DÇ-2014-ün oktyabrda Azərbaycan və Portuqaliya yığmalarına qarşı keçirəcəkəri seçmə oyunlarına dəvət edəcək.

Rusiya mətbuatının yaydığı xəbərə görə, adları çəkilən futbolçuların öz klublarının rəhbərliyi ilə münaqişələri Kapellonun seçiminə təsir etməyəcək.

Qeyd edək ki, Denisov və Karjakov bu problem səbəbindən "Zenit"in əvəzedici heyətinə göndərilib.

## "Simurq" braziliyalı futbolçunu transfer etdi

Cari Premyer Liqada uğurlu çıxışı ilə diqqət çəkən "Simurq" heyətinə braziliyalı futbolçu cəlb edib. Bu, braziliyalı müdafiəçi Anderson Oliveyra Almeydadır.

Klubun icraçı direktoru Vaqif Əliyev qeyd edib ki, 32 yaşlı futbolçu ilə bir illik müqavilə imzalayıblar.

Qeyd edək ki, Almeydanın son klubu Rumıniyanın "Vaslui" komandası olub. Burada 14 oyun keçirən braziliyalı "Simurq"a gələnə qədər azad agent olub.

Qeyd edək ki, Almeyda müxtəlif vaxtlarda "Levadiakos" (Yunanıstan), "Vitoriya" (Portuqaliya), AEP (Yunanıstan) klublarında çıxış edib.

## "Nou-Kamp" üçün 300 milyon avro

"Barselona" "Nou-Kamp" stadionunda yenidənqurma işləri aparacaq.

İspaniya mətbuatının yaydığı xəbərə görə, bununla əlaqədar artıq klub tərəfindən 300 milyon avro ayrılacaq.

Yenidənqurma işləri təkcə arenanın özündə deyil, ona bitişik ərazidə də görüləcək.

## Messi Villa ilə insidentdən danışdı

"Barselona"nın hücumçusu Lionel Messi "Qranada"ya qarşı La Liqanın oyununda komanda yoldaşı David Villa ilə aralarında yaranmış mübahisəyə münasibət bildirib.

Qeyd edək ki, Villa Messiyə ötürmə vermədiyi üçün argentinalı oyunçu onun üstünə qışqırıb.

Matçdan sonra o qeyd edib ki, Villa ilə aralarında heç bir problem yoxdur.

"Problem olmayan yerdə problem axtarmaq düz deyil. Mən və David bir-birimizi yaxşı başa düşürük. Aramızdakı mübahisə isə adi oyun epizodu zamanı yaranmışdı" — deyə Messi bildirib.

# Hacı Əlisgəndər Yaqubov –75



Ömrünün 76-cı baharına qədəm qoyan bacarıqlı alim-aqronom Hacı Əlisgəndər Yaqubovu təkcə kənd təsərrüfatı sahəsində çalışan həmkarları deyil, ölkənin tanınmış jurnalistləri, qələm sahibləri də özlərinə yaxın dost, sirdaş sayırlar.

Onun əmək fəaliyyəti, sadəcə, insanlarla davranışı, səmimiyyəti və dünya baxışıyla yaxından tanış olanlar Hacı Əlisgəndəri həm də gözəl müsahib kimi dəyərləndirirlər. Hər il doğum günündə neçə-neçə söz sahibi Hacı Əlisgəndəri təbrik etməyi özünə borc sayır. Fədakar əməyinə görə yüksək dövlət mükafatlarına layiq görülmüş əmək veteranı parlaq şəxsi keyfiyyətləri, düzlüyü, mərdliyi, təəssübkeşliyilə təkcə təmsil etdiyi el-obanın — Masallı rayonun deyil, Cənub bölgəsinin hər bir guşəsində adı rəğbətlə, ehtiramla çəkilən vətəndaş kimi şöhrətlənib.

Hacı Əlisgəndər əqidəsindən dönməyən, nəfsinə yiyəlik edən nəcib insanlardan biridir. Yaxınları, doğmaları, o cümlədən dostları Hacı Əlisgəndər Yaqubovun heç nəyin və heç kəsin qarşısında əyilmədiyini, halal zəhmətilə ucalan bir mütəxəssis olduğunu söyləyirlər. Məhz bu keyfiyyətlərinə görə Hacı Əlisgəndər Yaqubov 2010-cu il noyabrın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Əməkdar Kənd Təsərrüfatı İşçisi" adına layiq görülüb.

Yubilyarı doğum günü münasibətilə səmimi- qəlbdən təbrik edir, ona uzun ömür, can sağlığı arzulayırıq. 75-in mübarək, əziz dost! İnanırıq ki, Tanrı və iman yolunda etdiyin xeyirxahlıqlar, savab işlər və əl tutub yol göstərdiyin köməksiz insanların duaları səni bir ərs yaşadacaq. Yetmiş beşi vurdun başa, səni azı yüz il yaşa, hörmətli yubilyar!

**Dostları**

## *Foqts:* "Azərbaycanlı futbolçular gündə iki dəfə məşq etmək istəmirlər"



"Hazırda Azərbaycan çempionatının oyunlarında ən azı dörd yerli futbolçu çıxış etməlidir. Mənim bu ölkəyə gəlişimə qədər elə komandalar vardı ki, istisnasız olaraq, legionerlərlə çıxış edirdilər. Bu gün isə hər klubda biri 21 yaşlı olmaqla dörd yerli futbolçu oynamalıdır".

Bu sözləri Azərbaycan milli komandasının baş məşqçisi Berti Foqts Almaniyanın "Kikker" nəşrinə müsahibəsində bildirib.

Yenidən Azərbaycana gələn Foqts alman jurnalistə müsahibəni "Teleqüllə" restoranında verib.

Alman mütəxəssis müsahibəsində azərbaycanlı futbolçularla bağlı iradlarını səsləndirib: "Burada oyunçular gündə iki dəfə məşq etmək istəmirlər. Onlar artıq Mərkəzi Avropa futboluna yaxınlaşmalıdırlar. Soruşursunuz ki, alman və Azərbaycanın futbol mentalitetində nə kimi oxşar cəhətlər var? Yoxdur. İki il əvvəl "Qarabağ" Avropaliqada Dortmund "Borussiya"sı ilə qarşılaşdı. O zaman "Borussiya"nın çempionatdakı oyunu təxirə salınmadı, amma "Qarabağ"ın matçı təxirə salındı. "Borussiya" ilə oyunlardan sonra futbolçular üç günlüyünə istirahətə buraxıldılar. Komandada heç bir hazırlıq yox idi".

Foqts millinin üzvləri haqda da danışaraq qeyd edib ki, futbolçular bir-birilərini tənqid etməyi, oyun səhvlərini üzlərinə deməyi bacarmırlar.

Millinin baş məşqçisi Azərbaycanın "Avro-2020"ni qəbul edəcəyinə ümid etdiyini deyib: "Azərbaycan Gürcüstanla birgə "Avro-2020"ni qəbul etməyə hazırlaşır. İnanıram ki, bu mümkün olacaq".

Milli komandamızın çalışdırıcısı Berti Foqts gələcəkdə hansısa klubda baş məşqçi işləməsiylə bağlı məsələyə toxunub.

O qeyd edib ki, heç bir klubda baş məşqçi işləmək fikri yoxdur.

"Mən klubda yalnız məsləhətçi və ya idman direktoru vəzifəsində çalışa bilərəm" — deyə o vurğulayıb.

## "Xəzər Lənkəran"da yeni məşqçi

"Xəzər Lənləran"ın məşqçilər korpusuna daha bir nəfər gətirilib. Keçmiş futbolçu Emin Quliyevlə iki illik müqavilə imzalanıb. Emin baş məçqçinin köməkçisi vəzifəsində çalışacaq.

Emin Quliyev "Xəzər Lənkəran"da 2005-2009-cu illərdə çıxış edib. Bu komandayla birgə o, 2006/2007 mövsümünün Azərbaycan çempionu, həmin mövsüm ölkə kubokunun və 2008-ci ilin "Birlik Kuboku"nun qalibi olub.

Futbolçu karyerası ərzində Emin "Xəzər Lənkəran"dan başqa "Kəpəz", "Liteks" (Bolqarıstan), "Çerno More" (Bolqarıstan), "Neftçi", Alaniya (Rusiya), "Karvan", "Simurq" və "Turan" klublarının şərəfini qoruyub.

O, 2000-ci ildən başlayaraq milli yığma komandamızın üzvü də olub.

## *Qurban Qurbanov:* "Üzərimdə psixoloji sarsıntı var idi"

"Çətin oyun oldu. Komandada müəyyən psixoloji sıxıntı var idi. O cümlədən də özümdə. Bizim üçün əsas 3 xalı qazanmaq idi, buna da müdafiədə diqqətli oyunla nail olduq".

Bu sözləri Premyer Liqanın VI turu çərçivəsində səfərdə "Turan"ı məğlub edən (1:0) "Qarabağ" klubunun baş məşqçisi Qurban Qurbanov deyib.

Baş məşqçi komandasının sona kimi mübarizə apardığını bildirib: "Oyun intizamını pozmadıq. Qol vurmaq üçün imkanlar yaradırdıq. Hər iki komandaya gələcək oyunlarda uğurlar arzulayıram".


## Azərbaycan Respublikası Təhsil Nazirliyi
## Qərb Universiteti

2012-ci il üçün Universitetin fəlsəfə doktoru proqramı üzrə doktoranturasına və dissertanturaya aşağıdakı ixtisaslar üzrə qəbul elan edir.

### I. Fəlsəfə doktoru proqramı üzrə:

| № | İxtisaslar | İxtisasın şifri | Ödənişli əsaslarla | | |
|---|---|---|---|---|---|
| | | | Cəmi | Əyani | Qiyabi |
| 1. | Dünya iqtisadiyyatı | 5310.01 | 3 | 1 | 2 |
| 2. | Dünya ədəbiyyatı | 5718.01 | 4 | 2 | 2 |
| 3. | Beynəlxalq münasibətlər | 5901.01 | 4 | 1 | 3 |
| 4. | Sistemli analiz, idarəetmə və informasiya işlənməsi | 3338.01 | 1 | - | 1 |

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 129 №li "01" iyul 2011-ci il tarixli qərarına uyğun olaraq Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya ali təhsili olan (ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən, yaxud təhsili ona bərabər tutulan mütəxəssis) Azərbaycan Respublikasının vətəndaşları müsabiqə əsasında qəbul olunurlar.**

**Fəlsəfə doktoru proqramı üzrə doktoranturada əyani təhsil müddəti 3 il, qiyabi təhsil müddəti 4 ildir.**

**Doktoranturaya qəbul olmaq istəyənlər ixtisas fənnindən, xarici dildən və fəlsəfədən ali təhsil pilləsinin magistratura səviyyəsi üçün qüvvədə olan tədris proqramları həcmində qəbul imtahanları verirlər.**

**Doktoranturaya sənədlər 17 sentyabr 2012-ci il tarixindən 16 oktyabr 2012-ci il tarixinə qədər qəbul edilir.**

**Qəbul imtahanları 22 oktyabr 2012-ci il tarixindən 21 noyabr 2012-ci il tarixinə keçiriləcək.**

### II. Fəlsəfə doktoru proqramı üzrə dissertantların təhkimolunma planı:

| № | İxtisaslar | İxtisasın şifri | Ödənişli əsaslarla |
|---|---|---|---|
| 1. | Dünya iqtisadiyyatı | 5310.01 | 2 |
| 2. | Dünya ədəbiyyatı | 5718.01 | 2 |
| 3. | Beynəlxalq münasibətlər | 5901.01 | 2 |

**Fəlsəfə doktoru uzrə doktoranturada dissertantlıq yolu ilə təhsil müddəti 4 ildir.**

**Doktorantura və dissertantlıq yolu ilə təhsil almaq üçün aşağıdakı sənədlər təqdim edilir.**

— ərizə (doktoranturanın fəaliyyət göstərdiyi müəssisənin və yaxud təşkilatın rəhbərinin adına);
— kadrların şəxsi qeydiyyat vərəqi;
— tərcümeyi-hal;
— iş yerindən xasiyyətnamə;
— 2 ədəd fotoşəkil (3x4 sm ölçüdə);
— iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;
— çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat;
— ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);
— şəxsiyyəti təsdiq edən sənədin surəti.

**Təhsil haqqı müqavilə yolu ilə müəyyən edilir.**

**Ünvan:** Bakı şəhəri, İstiqlaliyyət küç. 27
**Tel:** (+99412) 492 61 63; 492 74 18 (14)
**Faks:** (+99412) 492 67 01
**e-mail:** www.wu.edu.az


### BİLDİRİŞ




2012-ci il sentyabr ayının 26-da saat 14.00-da "Bayatı" kitab mağazası Azərbaycan Yazıçılar Birliyinin "Natəvan" klubunda Elçin Mirzəbəylinin "Poz bu sükutu" kitabının imza gününü keçirəcək.

Maraqlananlar dəvət olunur.

### BİLDİRİŞ

2012-ci il sentyabr ayının 25-də saat 14.00-da Azərbaycan Yazıçılar Birliyinin "Natəvan" klubunda AYB və İLESAM-ın (Elm və Ədəbiyyat sahibləri Məslək Birliyi) "Türkiyə və Azərbaycan şairləri Türk dili günündə görüşür" adlı birgə tədbiri keçiriləcək.

**Maraqlananlar dəvət olunur.**

### Təbrik



Hafiz balanın 2 yaşı tamam olur. Əzizləri Hafiz, Malik, Arzu, Seyran, Jenni, Elza və Heydər onu təbrik edir, can sağlığı, uzun ömür və Vətənimiz üçün gərəkli övlad olmağı arzulayırlar.

### MİNNƏTDARLIQ

Hələ məmləkətimizdə xeyirxah, öz peşəsinə hörmət edən, ləyaqətli və namuslu adamlar var və şükürlər olsun ki, onlar az deyil. Tale elə gətirib ki, mən uzun zamandır müxtəlif ağır xəstəliklərə mübtəla olmuşam. Böyrək çatışmazlığı-dializə gedirəm, ürəyimdən ağır əməliyyat keçirmişəm, şəkər xəstəsiyəm-bir ayağım kəsilib, ikinci ayağımda da problem var. Gözdən 1-ci qrup əliləm...Yəni mən hazırda tam şəkildə həkimlərin və uca yaradanın sayəsində yaşayıram. Yaşadığım bu günlərdə yaxşı və pis insanlara çox rast gəlmişəm, amma mən yaxşılardan danışmaq istəyirəm.

Mənə həkimlikdən başqa, əsl qardaşlıq qayğısı göstərən, Hipokrat andına (Təəssüflər olsun ki, bu gün o anda sadiq qalan çox az həkimlərimiz qalıb.) sadiq qalan həkimlərdən-Sumqayıt Şəhəri Səhiyyə Şöbəsinin müdiri Ələkbər Tağıyev və 3 saylı Sumqayıt şəhər Xəstəxanasının damar cərrahı Şaiq Əliyevdən söz açmaq istəyirəm.

Nə yaxşı ki, hələ də dünyamız xeyirxah, qayğıkeş və humanist insanlardan, sözün əsl mənasında, öz peşəsinə sadiq insanlardan xali deyil! Yoxsa, yaşamaq, həyatda ayaq üstə qalmaq çox çətin olardı. Bu sözləri yazaraq mənə çox böyük diqqət və qayğı göstərən bu insanlara öz dərin minnətdarlığımı bildirirəm. Bu günlərdə yaşamaq, ayaqda qalmaq, xəstəliklərdən qurtulmaq, bir sözlə, həyat eşqi ilə yaşamaq ümidim xeyirxahlarımın sayəsində birə-beş artıbdır.

Allahdan bütün xəstələrə şəfa, xəstələrə arxa duran, onlara qayğı və diqqətini əsirgəməyin Ə.Tağıyevə, Ş.Əliyevə və bu kimi insanlara isə can sağlığı arzulayıram.

Çox sağ olun, əziz həkimlərim! Sizə çox minnətdaram!

**Taryel Əliyev,**
**Ağdam rayonundan məçburi köçkün**

### Elanlar

Rəhimov Ədalət Vəli oğlunun adına (VÖEN 2000573052) kassa aparatı (ünvan: AZE 1123. Bakı şəhəri (Xətai rayonu Cavanşir küç. ev 15) itdiyi üçün etibarsız sayılır.

Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin Ağcabədi rayon şöbəsi tərəfindən Qiyamadınlı kənd sakini Rəhimova Ruba Abbas qızının adına 10 avqust 2005-ci il tarixdə verilmiş CN-033A KOD 60805028 seriyalı Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Rəşad Məcid, İmdat Avşar, Elçin Hüseynbəyli Aydın Tağıyevə anası
**BƏKURƏ xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Yaşar Əliyev, Abbas Axundov və Rəşad Kərimov Azad Məmmədzadəyə qardaşı
**ETİBARIN**
vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"525-ci qəzet"in kollektivi Anar Xanlarova
**ANASININ**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Qol.Az saytının kollektivi iş yoldaşları Anar Xanlarova
**ANASININ**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**Qəzet 1992-ci il noyabrın 17-dən çıxır.**

**Baş redaktor:** Rəşad Məcid
**Redaktor:** Yaşar Əliyev
**Baş redaktor müavinləri:** Yusif Rzayev, Seyfəddin Hüseynli
**Redaktor müavinləri:** Aydın Bağırov, Mirhacib Məcid, İsgəndər Həsənov
Qəzet bazar və bazar ertəsindən başqa hər gün çıxır
**Ünvan:** AZ1033, Bakı, Ş.Mustafayev küçəsi-27/121
Telefon: 566-67-98, 566-93-40
Faks: 566-25-20
**İnternet ünvanı: www.525.az**
**E-mail: qezet525@mail.ru**
Qəzet "Azərbaycan" nəşriyyatının mətbəəsində çap olunub.
Təsisçi: "525" şirkəti
İndeks: 0046, tiraj: 2425, sifariş:3194
"TURAN", "TREND", AzərTAc, "AssA-İradə", APA və "OLAYLAR"ın informasiyalarından istifadə olunub.
Dərc olunan reklamların mətninə görə redaksiya məsuliyyət daşımır.
® işarəsi altında dərc olunan materiallar reklam xarakterlidir.

